**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “AZƏRBAYCAN RESPUBLİKASINDA ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİN STATİSTİK TƏDQİQİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Namazov Rauf Azər oğlu**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**"____" ________________ 20__-ci il**

# "AZƏRBAYCAN RESPUBLİKASINDA ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİN STATİSTİK TƏDQİQİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: 060406 - "Statistika"**

**İxtisaslaşma: Makroiqtisadi statistika**

**Qrup: 772**

**Magistrant**
**Namazov Rauf Azər**

**____________________imza**

**Elmi rəhbər**
**i.e.d., prof. Yaqubov Sakit Məmədi**

**_____________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab**

**_____________________imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**

**_____________________imza**

**BAKI – 2021**

## Elm andı

Mən, Namazov Rauf Azər oğlu and içirəm ki, “Azərbaycan Respublikasında əsas makroiqtisadi göstəricilərin statistik tədqiqi” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

## AZƏRBAYCAN RESPUBLİKASINDA ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİN STATİSTİK TƏDQİQİ


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Davamlı və yenilikçi sosial-iqtisadi inkişafın təmin edilməsi yalnızca idarəetməni təmin etmək və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək üçün effektiv təşkilati idarəetmə deyil, həm də mövcud sosial-iqtisadi durumun intensiv olaraq monitorinqi və statistik təhlil edilməsini tələb edir.**

**Tədqiqatın məqsədi: Dissertasiya işinin məqsədi Azərbaycan Respublikasında makroiqtisadi göstəricilərinin təhlil edilməsidir.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiyanın yazılması prosesində müxtəlif sənədlərin təhlil üsulları, məlumat mənbələri, makroiqtisadi göstəricilərə elmi-nəzəri yanaşmalar və onların təhlili, habelə praktik əhəmiyyəti olan biliklərin analitik tətbiqi metodlarından istifadə edilmişdir.**

**Eyni zamanda aşağıdakı metodlardan istifadə olunmuçdur:**

**- qruplaşdırma, sistemləşdirmə, müqayisə metodları;**

**- analiz və kompozisiya, induksiya və deduksiya metodları.**

**Tədqiqatın informasiya bazası: Azərbaycan Respublikası DSK-nin illik bülletenlərindən, kütləvi informasiya vasitələrindəki məqalələrdən, nüfuzlu beynəlxalq statistik mənbələrdən və elektron KİV-lərdə verilən məlumatlardan ibarətdir.**

**Tədqiqat məhdudiyyətləri: Mövzu ilə bağlı tədqiqat üçün nəzəri və метodoloji məlumat bazasında bəzi çatışmazlıqlar, yerli ədəbiyyatın azlığı**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Sosial-iqtisadi inkişafın analizində makroiqtisadi göstəricilər sisteminin rolunu boyükdür və dövlətin elmi yeniliyinə dair əsas statistik məlumat axınlarını toplamaq, təsvir etmək və uyğunlaşdırmaq üçün bir vasitə rolunu oynayır. Tədqiqatlar və Respublikamızın sosial-inkişafını müəyyən edən və ardıcıl inkişaf qaydalarını aşkar edən makroiqtisadi göstəricilərin statistik öyrənilməsi.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqat işinin praktik əhəmiyyəti ölkəmizdə makroiqtisadi göstəricilərin təhlili istiqamətində tövsiyələr verməkdir. Dissertasiya işində əldə edilmiş nəticələrdən makroiqtisadi analizin yeni təhlil istiqamətlərinin müəyyənləşdirilməsində istifadə edilə bilər.**



***Açar sözlər: sosial-iqtisadi inkişaf, makroiqtisadi göstəricilər, davamlı iqtisadi artım, yenilikçi inkişaf, statistik analiz.***

## STATISTICAL RESEARCH OF MAIN MACROECONOMIC INDICATORS IN THE AZERBAIJAN REPUBLIC

### SUMMARY

**The actuality of the subject: Ensuring sustainable and innovative socio-economic development requires not only effective organizational management to activate management decisions and determine future directions of development, but also constant monitoring and statistical analysis of the current social-economic situation.**

**Purpose and tasks of the research: The purpose of the dissertation work is to analyze macroeconomic indicators in the Republic of Azerbaijan.**

**Used research methods: Methods of analysis of various documents, data sources, scientific-theoretical approaches to macroeconomic indicators and their analysis, methods were used during the writing of the dissertation.**

**Methods used in the research work:**

**- groupment, systematization, comparison methods;**

**- analysis and composition, induction and deduction methods.**

**The information base of the research: It consists of annual bulletins of the State Statistics Committee of the Republic of Azerbaijan, articles in mass media, information provided in authoritative international statistical sources and electronic media.**

**Restrictions of research: There are some shortcomings in the theoretical and methodological information base for research on the subject, insufficient local literature.**

**The novelty and practical results of investigation: The role of the system of macroeconomic indicators in the analysis of socio-economic development is great and serves as a tool for collecting, describing and adapting statistical data flows on scientific innovation**

**Scientific and practical significance of the results: The practical significance of the research is to make recommendations for the analysis of macroeconomic indicators in our country. The obtained results can be used to identify new areas of macroeconomic analysis.**

***Keywords:** socio-economic development, macroeconomic indicators, sustainable economic growth, innovative development, statistical analysis.*

# İXTİSARLAR VƏ İŞARƏLƏR

**XMG** – Xalis Milli Gəlir

**MHS** – Milli Hesabdarlıq Sistemi

**ÜDM --**Ümumi Daxili Məhsul

**ÜMG** – Ümumi Milli Gəlir

**ÜMM** – Ümummilli Məhsul

## MÜNDƏRİCAT

**GİRİŞ......................................................................................................8**

**I FƏSIL. ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ QİYMƏTLƏN-RİLMƏSİNDƏ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİN ROLU VƏ NƏ-ZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ.....................................................12**

1.1. Ölkənin sosial--iqtisadi inkişafının statistik qiymətləndirilməsində makroiqtisadi göstəricilərin rolu və onların nəzəri əsasları.....................12

1.2. Makroiqtisadi göstəricilərin statistik təhlilinin əsas iqtiqamətləri.22

**II FƏSIL. ÜMUMİ DAXİLİ MƏHSULUN DİNAMİKASININ STATİSTİK QİYMƏTLƏNDİRİLMƏ METODLARI.....................................................30**

2.1. İstehsal, bölgü və son istifadə mərhələlərində də ÜDM və onun komponentlərinin dinamikası göstəricilərinin işlənməsi metodları.......30

2.2. Ümumi daxili məhsulun qiymətləndirilməsi və statistik modelləş-dirilməsi metodları.........................................................................................36

**III FƏSIL. AZƏRBAYCAN RESPUBLİKASINDA ƏSAS MAKROİQTİ-SADİ GÖSTƏRİCİLƏRİN STATİSTİK TƏDQİQİ...................................47**

3.1. Ölkənin əsas makroiqtisadi göstəricilərin dinamikasının statistik təhlili...........................................................................................................47

3.2. Ölkənin makroiqtisadi göstəricilərinin çoxamilli model əsasında təhlili...........................................................................................................53

3.3. Əsas makroiqtisadi göstəricilərin əlaqəsinin statistik təhl...........57

**NƏTİCƏ VƏ TƏKLİFLƏR……...............................................................66**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHI……….......…....…70**

**ƏLAVƏLƏR..................................................................................................73**

Cədvəllərin siyahısı...............................................……………...….80

Qrafiklərin siyahısı…………………………………….........…...…80

# GİRİŞ

**Mövzunun aktuallığı:** Davamlı və innovativ sosial və iqtisadi inkişafın təmini yalnız idarəetmə qərarlarını aktivləşdirmək və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək üçün effektiv deyil, həm də mövcud sosial-iqtisadi vəziyyətin intensiv olaraq monitorinq edilməsini və statistik təhlilini tələb edir. Belə statistik təhlil və monitorinqin aparıması ölkəmizin inkişafının əsas göstəriciləri arasında qarşılıqlı əlaqələrin aşkarlanmasına, iqtisadi inkişafın nəticələrinin, sosial və iqtisadi layihələrin verimliliyinin müəyyən ediməsinə, gələcək inkişaf meyllərinin əsaslandırılması ,proqnoz edilməsi və, istənməyən hallara qarşı zamanında tədbir görülməsi üçün şərait yaradır . Çağdaş dünyada ölkənin sosial-iqtisadi inkişafının xarakterik xüsusiyyəti keyfiyyət amillərinə əsfslanan davamlı iqtisadi artımı təmin etməkdir və daha təkmil fikir və yanaşmaların tətbiq edilməsini, alətlərdən istifadəni zəruri edir. İqtisadiyyatın sosial və bazar yönümlü olması, eyni zamanda mövcud mənbələrdən səmərəli istifadə idarəetmədə verilən qərarların məsuliyyətini artırır. Yəni ki, sosical-iqtisadi inkişaf sahəsindəki qərarlar, onlara hərtərəfli yanaşma zərurəti yaradan makroiqtisadi göstəricilər arasındakı əlaqənin ətraflı təhlilinə, etibarlılığına və obyektivliyinə əsaslanmalıdır. Sosial və iqtisadi sahədə inkişafın mövcud durumunu ümumiləşdirilmiş formada əks etdirmək üçün milli hesablar sistemidən və onunla əldə olunmuş və bir-biri ilə qarşılıqlı əlaqəli makroiqtisadi göstəricilər sistemi istifadə olunur. Bu sistemin ölkənin statistik praktikasında qısa müddətdə tətbiq edilsə də, bu sahədə əhəmiyyətli irəliləyişlər əldə edilmişdir. Müasir informasiya sistemi kimi fəaliyyət göstərən milli hesabatlılıq dövlət idarəçiliyinin makroiqtisadi siyasətinin formalaşmasında, müxtəlif makroiqtisadi nisbətlərin müəyyən edilməsində, iqtisadi inkişafın prioritet amillərinin müəyyənləşdirilməsində, iqtisadi siyasət effektivliyinin qiymətləndirilməsində və s. vacibdir.

Ölkədəki sosial-iqtisadi proseslərin milli hesabdarlıq sisteminin göstəricilərinə təhlili üçün vacib göstəricilər sistemi ölkənin iqtisadiyyat durumunu və inkişafının hərtərəfli təhlilinin əsasını təşkil edir. Hərtərəfli təhlil üçün iqtisadiyyatın

tənzimlənməsi və iqtisadi siyasətin müəyyən edilməsi ilə yanaşı, ilk növbədə dövlət idarəetməsi üçün zəruri olan müxtəlif dövlət praqramlarının və icrası tədbirlərinin hazırlanması ilə əlaqədar məsələlərin həll edimәsinə şərait yaradır. Bütövlükdə ölkənin və ayrıca ayrı-ayrı bölmələrin və sektorların iqtisadi və sosial inkişafının hərtərəfli təhlili üçün nəzərdə tutulmuş göstəricilər sisteminin quruluşu iqtisadi inkişaf səviyyəsini, istehsal nəticələrini, əsas makroiqtisadi nisbətləri müəyyənləşdirir, resurslar və onların istehsalda istifadəsi, gəlir və qiymət dinamikasını, maliyə və kredit sisteminin vəziyyətini, investisiyaları, milli sərvəti özündə göstərir.

Buna əsasən, bazar iqtisadiyyatının struktur quruluşunu, qurumlarının və mexanizmlərinin müasir dövrdə fəaliyyətini göstərən milli hesablar sistemnin göstəricilərnə əsasən ölkənin sosial-iqtisadi inkişafının statistik təhlili aktualdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Müasir dövrdə həm MHS həm də onun makroiqtisadi göstəriciləri ölkənin iqtisadi problemlərinin təhlilində, milli iqtisadiyyatın inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində və məlumatlı idarəetmə üçün qərarlarının müəyyən e dilməsi üçün mühüm bir informasiya sistemi kimi vacibdir. Makroiqtisadi göstəricilərin hesablanması metodologiyası, milli mühasibatlıq sistemi üçün analitik imkanlarının çoxaldılması və s. çoxsaylı tədqiqat işləri bu məsələlərə həsr edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**: Dissertasiya işinin məqsədi Azərbaycan Respublikasında makroiqtisadi göstəriciləri təhlil etməkdir. Tədqiqat məqsədinə əsasən aşağıdakı vəzifələr zəruri hesab edilmişdir:

- sosial-iqtisadi inkişafın və onun nəzəri əsaslarının təhlilində makroiqtisadi göstəricilər sisteminin vacib informasiya sistemi kimi rolunu öyrənmək;
- sosial-iqtisadi inkişafın tədqiqində makroiqtisadi göstəricilər sisteminin analitik imkanları və statistik təhlilin əsas istiqamətlərini müəyyənləşdirmək;
- ÜDM-in qiymətləndirmə və statistik modelləşdirmə metodlarını nəzərdən keçirmək,
- iqtisadyyatın inkişafını müəyyənləşdirməyə imkan yaradan əsas makroiqtisadi göstəriciləri təsnif etmək və onların hesablanması metodologiyasını öyrənmək;

- makroiqtisadi göstəricilər əsasında ölkə iqtisadiyyatının mövcud vəziyyətinin statistik təhlilini aparmaq;
- Respublikamızda əsas makroiqtisadi göstəricilərin dinamikasının statistik təhlili, onların aralarındakı əlaqəni aşkar etmək.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti Azərbaycan Respublikasının makroiqtisadi göstəriciləridir.Tədqiqat predmeti ölkənin sosial-iqtisadi inkişafındakı əsas meylləri əks etdirən makroiqtisadi göstəricilərin statistik təhlilidir.

**Tədqiqat metodları:** Dissertasiyanın yazılması prosesində müxtəlif sənədlərin, məlumat mənbələrinin, makroiqtisadi göstəricilərə dair elmi-nəzəri yanaşmaların və onların təhlilinin təhlil metodlarından, həmçinin praktiki əhəmiyyəti plan biliklərin tətbiqinin təhlil metodlarından istifadə edilmişdir. Tədqiqatın mərhələləri aşağıdakılardır:
- Əvvəlcə tədqiqat mövzusunun nəzəri əsasları öyrənildi. Bu mərhələdə tədqiqatın məqsədlərinin həyata keçirilməsinə xidmət edən sosial-iqtisadi inkişafdakı makroiqtisadi göstəricilərin rolunun nəzəri təhlili aparıldı. Burada qruplaşdırma, sistemləşdirmə, müqayisə metodlarından istifadə olunmuşdur.
- Sonrakı mərhələdə əldə olunmuş nəzəri və empirik məlumatların sistemləşdirilməsi və ümumiləşdirilməsi ilə ölkəmizin iqtisadiyyatında makroiqtisadi göstəricilərin təhlili aparıldı ki, bu da təhlil olunan sahəyə təsir edən əsas amilləri müəyyənləşdirməyə imkan verdi. Bu mərhələdə mövcud sahədəki dəyişikliklərlə bağlı statistik məlumatlar da verilir. Bu mərhələdə deduksiya və induksiya ,analiz və tərkib kimi metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası:** Azərbaycan Respublikası DSK-nin illik bülletenlərindən, KİV-lərdəki məqalələrdən, nüfuzlu beynəlxalq statistik mənbələrdə verilən məlumatlardan və elektron mediadan ibarətdir. Tədqiqat prosesi nisbi,mütləq və orta kəmiyyətlər, qrafik metodlar, regresiya-korrelyasiya analizi, dinamika sıralarının təhlili metodu, müxtəlif proqnozlaşdırma metodları, analiz və sintez və s. daxil olmaqla müxtəlif ümumi statistik metodları əhatə edir.

**Tədqiqatın mədudiyyətləri:** Müasir dövrdə MHS-də maliyyə göstəricilərinin işlənərək hazırlanması baxımından respublikanın statsitika təcrübəsinə əsasən ilkin məlumatların əldə edilməsi ilə əlaqəli pkartiki xarakterli bəzi problemlər var ki, bu iqtisadi təhlildə maliyyə göstəricilərinnin tam olaraq istifadə edilməsinə imkan yaratmır.

**Tədqiqatın elmi yeniliyi:** aşağıdakılardan ibarətdir:

- Əsas statistik məlumat axınlarının toplanması, təsvir edilməsi və uyğunlaşdırılması vasitəsi olan sosial-iktisadi inkişafın təhlilində makroiqtisadi göstəricilər sisteminin rolu əsaslandırılmışdır;
- analitik imkanları əsaslandırılır və əsas statistik təhlil istiqamətləri müəyyənləşdirilir,
- MHS-nin əsas makroiqtisadi göstəricilərnin statistik təhlil edilməsi əsasında ölkəmizin iqtisadi inkişafının əsas xüsusiyyətləri müəyyən edilmişdir,
- Azərbaycanın iqtisadi inkişafının effektivliyini statistik qiymətləndirilməsinə kömək edən bir sıra göstəricilər müəyyən edilmişdir,
- ölkədə ÜDM-in inkişaf meyilləri açıqlanmış, növbəti illər üçün ÜDM-in proqnoz qiyməti hesablanmışdır,
- Respublikamızın sosial-iqtisadi inkişafının bir çox aspektlərinin statistik təhlili və makroiqtisadi inkişafın prioritetləri müəyyənləşdirildi,

-Respublikamızda sosial-inkişafı xarakterizə edən makroiqtisadi göstəricilər statistik olaraq tədqiq ediImiş və inkişaf qanunauyğunluqları müəyyən edilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiqi sahələri:** Tədqiqat işinin praktiki əhəmiyyəti ölkəmizdə makroqitsadi göstəricilərin təhlili istiqamətlərində tövsiyələr təklif etməkdədir. Dissertasiya işində əldə edilən nəticələr makroiqtsadi təhlilin yeni təhlil istiqamətlərinin müəyyən edilməsində istifadə edilə bilər.

# I FƏSİL. ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİNDƏ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİN ROLU VƏ ONUN NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ

## 1.1 .Ölkənin sosial-iqtisadi inkişafının statistik qiymətləndirilməsində makroiqtisadi göstəricilərin rolu və onların nəzəri əsasları

Bəşəriyyətin inkişaf tarixi müxtəlif qarşılıqlı iqtisadi münasibətlərlə müəyyən olunur. Bu münasibətlərin mahiyyətini anlamaq və tənzimləməyə bilmək üçün həyata keçən iqtisadi proseslər elmi baxımdan əsaslandırılmış və təkmilləşdirilmişdir. İqtisadi elmin müxtəlif inkişaf mərhələlərində dövlətin sərvətini təyin etmək üçün fərqli meyarlar mövcud olmuşdur

**Cədvəl 1: MHS-nin makroiqtisadi göstəriciləri**

| Sıra nömrəsi | MHS-nin makroiqtisadi göstəriciləri | Makroiqtisadi göstəricilərin düstür şəklində yazılışı |
|---|---|---|
| 1. | Ümumi daxili məhsul | ÜDM |
| 2. | Əsas kapitalın istehlakı | ƏKİ |
| 3. | Xalis daxili məhsul | XDM=UDM-ƏKİ |
| 4. | Xaricdən alınan ilkin gəlirlərin qalığı (saldosu) | XİGQ |
| 5. | Ümumi milli gəlir | UMG=ÜDM+XİSQ |
| 6. | Xalis milli gəlir | XMG=ÜMS-ƏKİ |
| 7. | Xaricdən alınan cari tranfertlərin qalığı | XACTQ (saldosu) |
| 8. | Sərəncamda olan ümumi milli gəlir | SUMG=ÜMG+XACTQ |
| 9. | Son istehlak | Sİ |
| 10. | Milli qənaət | MQ=SÜMG-Sİ |
| 11. | Xaricdən alınan kapital tranfertlərinin qalığı (saldosu) | XAKTQ |
| 12. | İnvestistiyanın maliyyələşmə mənbələri | İMM=MQ+XAKTQ |
| 13. | Milli yığım (ümumi daxili məhsulun ünsürü kimi) | MY |
| 14. | Qeyri-istehsal, qeyri-maddi, qeyri-maliyyə aktivlərinin əldə edilməsi | QİMA |

**Mənbə:** Aslanov A.M., Aslanova T.A., Əsas iqtisadi – statistik göstəricilərin izahlı lügəti, Bakı 2004, əsasında müəllif tərəfindən tərtib edilmişdir.

İqtisadi potensial hər bir ölkənin sosial-iqtisadi hədəflərinin həyata keçirilməsinin əsasını təşkil edir. Əhalinin bütün təbəqələri onun yaradılmasında iştirakçı olur, yerli istehsal sistemi və digər ölkələrlə əlaqələr tamamlanır və dəstəklənir. Ölkənin iqtisadi vəziyyətini xarakterizə edən göstəricilərə makroiqtisadi göstəricilər deyilir.

Ölkələrin iqtisadi fəaliyyətini müqayisə etmək, iqtisadiyyatdakı bütün nisbətləri və prosesləri öyrənmək və s. üçün Milli Hesablama Sisteminin makroiqtisadi göstəricilərindən istifadə olunur. Bu göstəricilər MHS-də əsas göstəricilər adlanır.

> *"...Mürəkkəb bir sosial-iqtisadi sistem olan təkrar istehsal prosesi, ölkə iqtisadiyyatındakı real hadisələrin və proseslərin miqyasını, qarşılıqlı asılılığını və qarşılıqlı əlaqəsini təyin edən əhəmiyyətli bir makroiqtisadi nisbət və göstərici qrupu ilə xarakterizə olunur..."* (*Cabbarova A.İ və Dünyamalıyeva V.R., 2014, s.17*).

Sosial-iqtisadi statistikanın ən vacib vəzifələrindən biri dövlətin sosial-iqtisadi inkişaf xüsusiyyətlərini xarakterizə edən əsas makroiqtisadi göstəriciləri müəyyən etmək və onlara təsir edən amilləri və meylləri öyrənməkdir. Bu göstəricilər olmadan ölkənin milli iqtisadiyyatının inkişafı və sosial-iqtisadi hədəflərinə çatması baxımından səmərəli idarə etmək mümkün deyil. Hazırda əsas makroiqtisadi nisbətlər və göstəricilər üçün proqnoz qiymətlərinin inkişaf etdirilməsinin əhəmiyyəti artmaqdadır. Bu göstəricilərin hesablanması və təhlili və onların mütənasibliyi nəticəsində aşağıdakılara nail olmaq mümkündür:

- bütövlükdə ölkənin, ayrı-ayrı bölgələrin və əhalinin qruplarının xarici və daxili ehtiyaclarını ödəmək baxımından milli iqtisadiyyatın potensialını real qiymətləndirmək;
- milli iqtisadiyyatın ayrıca sahələrinin və ümumilikdə ölkə iqtisadiyyatının inkişaf imkanlarını müəyyənləşdirmək;
- iqtisadi islahatların strategiyası və taktikasını, xarici iqtisadi fəaliyyət prinsiplərini inkişaf etdirmək;
- ölkə bazarlarının və ayrı-ayrı seqmentlərinin iqtisadimexanizminin təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək;

- dövlətin maliyyə və kredit, vergi, sosial, investisiya, dövlət siyasətini inkişaf etdirmək;

- ölkənin, bölgələrin və ayrı-ayrı sektorların iqtisadi inkişafı üçün alternativ variantları qiymətləndirmək;

- dövlətin iqtisadi təhlükəsizliyini artırmaq üçün tədbirlər müəyyənləşdirmək və həyata keçirmək.

Büdcə siyasəti üçün makroiqtisadi analizin əhəmiyyəti belədir: bir ölkə iqtisadiyyatı tənəzzülə uğradığında, hökumət ümumi daxili məhsulu artırmaq üçün vergiləri azaldar və ya tədarükləri artıra bilər. Əksinə, bir ölkə iqtisadiyyatı sürətlə inkişaf edirsə, dövlət satınalmalarını azalda və ya vergiləri artıra bilər.

Dövlətin pul siyasəti prinsiplərini müəyyənləşdirməkdə makroiqtisadi göstəricilərin təhlilinin rolu ondan ibarətdir ki, pul kütləsinin artması banklara külli miqdarda borc verməyə imkan verdiyi üçün təşviqlər həm əhali, həm də kommersiya bankları üçün faydalıdır.

Milli hesabatlılıq, makroiqtisadi göstəricilər sistemini statistik təhlilin məqsəd və vəzifələrinə adekvat şəkildə təqdim etmək, sosial-iqtisadi inkişaf strategiyasını hazırlamaq və iqtisadi idarəetmənin müxtəlif səviyyələrində mühüm qərarların verilməsi üçün əsasdır.

Milli hesabdarlıq təkrar istehsalın müxtəlif mərhələləri, iqtisadiyyatın quruluşu, vəziyyəti və dinamikası arasındakı əlaqələri təhlil etmək məqsədiylə gərəkli olan əsas makroiqtisadi göstəriciləri müəyyənləşdirməyə imkan verən tənzimlənmiş və sistemləşdirilmiş xüsusi bir məlumat formasıdır.

Milli hesabdarlıq milli gəlirin yaradılması və ümumi milli məhsulun paylanması, yenidən bölüşdürülməsini və istifadəsini müəyyən bir quruluşa və fəaliyyət qaydalarına sahib bir iqtisadi sistem daxilində izah edən kompleks bir konsepsiya sistemidir.

*“...BMT-nin milli hesabdarlıq modeli aşağıdakıları əhatə edən xüsusi nəzəri konsepsiya kimi qəbul edilə bilər.*

*a) milli məhsulun və gəlirin, habelə investisiyaların və əmanətlərin bərabərliyi baxımından hərəkətlərinin təsviri;*

*b) V. Leontyevin "xərclər - məhsullar" sektorlar arası tarazlıq modeli;*

*c) maddi nemətlərin və xidmətlərin qarşılıqlı təsirini əks etdirən maliyyə mənbələrinin hərəkətinin təhlili..." (Башкатов Б.И və Назарова О.В.,2015,c 124).*

Bu konsepsiyanın praktik olaraq həyata keçirilməsi milli hesablar sistemi, yəni iqtisadi münasibətlərin iştirakçıları arasındakı mübadilə əməliyyatlarının məcmu vəziyyətini ifadə edən xüsusi balanslar məcmusuna əsaslanan spesifik statistik sistemdir.

Müasir MHS-də istifadə edilən hesablar toplusu, bazar iqtisadiyyatının işlənməsi və inkişafı ilə əlaqədar əsas konsepsiyalara uyğun olaraq təşkil olunmuş ən rasional və əyani formada məlumat kütləsini əhatə edir. Bu məlumatlar iqtisadiyyatın vəziyyətini, habelə müxtəlif iqtisadiyyat subyektləri və onların ayrı-ayrı qrupları arasındakı qarşılıqlı əlaqəni xarakterizə edən ətraflı göstəricilər sistemini əks etdirir.

Təcrübədə MHS-in uçot sisteminin inkişafı ardıcıl dövrlər üçün həyata keçirilir və iqtisadi inkişafın dinamikasını qiymətləndirərək təhlil etmək, habelə iqtisadi aktivlərin hərəkətini və vəziyyətini, milli iqtisadiyyatın əlaqələrinin xarakterizə olunması üçün üçün məlumat bazasının formalaşmasını təmin edir. MHS müasir bir məlumat toplama və işləmə sistemidir və praktik olaraq bütün ölkələrdə bazar iqtisadiyyatının makroiqtisadi təhlil olunmasında istifadə edilir.

MHS ən vacib iqtisadi göstəriciləri - məhsul və xidmətlərin istehsalının həcmini, ümumi gəlir və xərcləri birləşdirir. ÜDM-nin hərəkətini bütün mərhələlərində (yəni istehsal, bölüşdürmə, son istifadə) görməyə imkan verir. Göstəriciləri bazar iqtisadiyyatının quruluşunu, qurumlarını və mexanizmlərini özündə göstərir. MHS-nin istifadəsi dövlətin effektiv makroiqtisadi siyasətinin aparılması, iqtisadi proqnozlaşdırılması, milli gəlirin beynəlxalq müqayisəsi üçün zəruridir.

İqtisadi fəaliyyəti səciyyələndirən makroiqtisadi göstəricilər sistemi MHS-da hesablar və balans şəklində təqdim edilmişdir.

Makroiqtisadi göstəricilər makro səviyyədə iqtisadi fəaliyətin nəticəsidir. İqtisadi fəaliyyətin mərkəzi makroiqtisadi göstəriciləri Ümumi Daxili Məhsul (ÜDM) və Ümumi Milli Məhsuldur (ÜMM). Bu göstəricilər iqtisadi fəaliyyətin inkişafını, böyümə nisbətlərini, ölkənin iqtisadi siyasətinin nəticələrini, təhlillərin

düzgün olub-olmadığını müqayisə olunması üçün istifadə edilir. Əsas makroiqtisadi göstəricilərin (ÜDM, ÜMM) köməyi ilə işləyən və iqtisadi-fəal əhalinin ümumi sayını, adambaşına düşən gəliri, investisiyaların həcmini, istehsal ehtiyatlarının həcmini, real gəliri müqayisə etmək mümkündür.

MHS-də ÜDM və ÜMM iqtisadiyyatın istehsal və xidmət sahəsində fəaliyyətini göstərmək üçün istifadə olunur. BMT-nin Milli Hesablar Sistemini qəbul etmiş ölkələr ÜDM-dən istifadə edirlər. Lakin əvvəlki dövrlərdə əsas makroiqtisadi göstərici ÜMM idi. ÜDM və ÜMM-nin hər iki göstəricisi iqtisadi fəaliyyəti əks etdirir. Bu göstəriciləri ölkə iqtisadiyyatında istənilən dövr üçün (ay, rüb, il) son məhsulun, xidmətlərin cari və sabit qiymətlərlə dəyərini göstərir.

ÜDM və ÜMM-nin fərq aşağıdakı kimidir:

- Aralarındakı ilk fərq, ölkənin ÜDM-də maddi sferada və xidmətlərdəki müəssisələrin məhsullarının dəyərinin cəmidir. Yəni, ümumiyyətlə ölkədə ÜDM hesablanır. İkinci fərq odur ki, ÜMM ölkədə və xaricdə istehsal edilən maddi nemətlər və xidmətlər sahəsinin dəyərinin cəmidir.
- ÜDM və ÜMM, ölkə daxilində və xaricdə istehsal edilən məhsulların istehsalında, rezidentlərin fəaliyyətində fərqlənir.
- ÜDM və ÜMM-nin fərqi, həmin ölkənin sərhədlərində istehsal olunan məhsulun amil gəlirləri ilə başqa ölkədə istehsal olunan eyni növ məhsulun amil gəlirləri arasındakı fərqdir. İşçilərin gəliri, kredit faizləri, kirayə gəliri və korporativ mənfəət faktor gəliridir.

*“...ÜDM-ə aşağıdakılar əlavə olunduqda ÜMM əldə edilir:*

*- Xarici müəssisə və şəxslər tərəfindən qazanılan gəlir;*

*- Ölkədəki investorların və xarici işçilərin mənfəəti və gəlirləri.*

*İnkişaf etmiş ölkələrdə ÜDM ilə ÜMM arasında çox fərq yoxdur. Təqribən fərq 1% -ə qədər dəyişir. Azərbaycanda ÜMM 1988-ci ildən, ÜDM isə 1992-ci ildən hesablanır...” (Cabbarova A. və, Dünyamalıyeva V.R.,2014, s.12).*

MHS-də ÜDM ilə ÜMM hesablanarkən əsas məqsəd məhsulu bir dəfə uçota almaqdır. Məhsulun bir neçə dəfə alqı-satqı xüsusiyyəti varsa, aralıq bir məhsuldur və qeyd edilmir. Məhsulun son mərhələsi, yəni hazır məhsulun dəyəri nəzərə alınır. Bununla birlikdə, birinci mərhələdə yaradılan dəyər, sonrakı emal mərhələsində

istehsal dəyəri ilə əlaqələndirilir. Bundan əlavə, məhsulun maya dəyərinə amortizasiya, əmək haqqı, mənfəət daxildir. MHS-də ÜDM və ÜMM hesablanarkən yenidən uçotun aparılmaması üçün aralıq istehlakı çıxarmaq lazımdır. Aralıq istehlak son məhsulun hazırlanması üçün köməkçi bir vasitədir. Aralıq istehlaka bir dəfədən çox satılmış və ya işlənmiş mal və xidmətlər daxildir. Ancaq aralıq istehlak da son məhsul olaraq satıla bilər və bazara çıxarılır. Təkrar olmanın qarşısını alınması üçün hər bir işləmə mərhələsində dəyəri ümumiləşdirmək lazımdır. Bu dəyər son məhsulda yığılır. Əlavə Olunmuş Dəyər istehsal olunan dəyər ilə istehlak edilmiş dəyər arasındakı fərqdir. Əlavə edilmiş dəyər iqtisadiyyatda daha çox "Əlavə Dəyər" kimi istifadə olunur. Əlavə dəyərə, amortizasiya mənfəət və əmək haqqı daxildir. Əlavə dəyər hesablanarkən ümumi məhsuldan amortizasiya çıxılmalıdır. Bu göstərici əvvəllər "Xalis Məhsul" adlanırdı. Əlavə dəyərə amortizasiya, əmək haqqı, şirkətlərin və müəssisələrin mənfəəti, icarə haqqı, kredit kapitalı faizləri, xalis vergilər və xalis ixrac daxildir.

Onu da qeyd etmək lazımdır ki, ÜDM göstəricisi bir çox sahələrin hesablanmasında istifadə olunsa da, bəzi sahələri əhatə etmir. Buna misal olaraq fərdi ev təsərrüfatları, kölgə iqtisadiyyatının gəlirləri, kəndlilərin özləri üçün becərdikləri kiçik təsərrüfat məhsulları, elm adamlarının çap olunmamış əsərləri və s. göstərilə bilər. Buna görə beynəlxalq təcrübədə qəbul olunmuş MHS-nin ÜDM göstəricisini yenidən nəzərdən keçirmək və təkmilləşdirmək lazımdır.

Buna səbəbdən ÜDM hesablanarkən beynəlxalq praktikada bəzi şərtlər nəzərə alınmalıdır.

1. Müqayisə olunan ölkələrdə ÜDM hesablama bazası razılaşdırılmalıdır.
2. ÜDM vahidləri ilə qiymətlərin müqayisəsi təmin edilməlidir Müxtəlif ölkələrdə ÜDM-i müqayisə etməyin ən sadə yolu adambaşına düşən kəmiyyət göstəricilərinin miqdarını müqayisə etməkdir.

SÜMG **- Sərəncamda olan Ümumi Milli Gəlir** Milli Hesablar Sisteminin əsas göstəricilərindən biridir. SÜMG rezidentlərin birdəfəlik gəlirlərinin, yəni son istehlak və qənaət gəlirlərinin cəmidir. Qeyri-rezidentlər tərəfindən ödənilən cari

köçürmələr ÜMG-dən çıxılmalı və digər ölkələrdən rezidentlərin aldığı köçürmələr əlavə edilməlidir.

Qeyri-rezident tərəfindən ödənilən köçürmələr hesablanarkən vergilərə əlavə olaraq istehsal və idxal subsidiyaları da çıxılmalıdır. SÜMG-dən əsas kapital istehlakı çıxıldıqda Sərəncamda olan Ümumi Milli Gəlir (SXMG) alınır.

XTQ- Xarici ticarət qalığı MHS-nin mühüm göstəricilərindən biridir. Bu göstəricini hesablamaq üçün ixrac həcmindən idxal həcmini çıxarmaq lazımdır. İxracın həcmi ölkələrinin və ya ABŞ valyutası ilə hesablanır. İxracın həcmi mövcud qiymətlər əsasında müəyyən olunur.

Milli Qənaəti (yığım) - hesablamaq üçün sərəncamda qalan Milli Gəlirdən son istehlak miqdarını çıxarmaq lazımdır. Xarici kreditləşmə - iqtisadiyyat səviyyəsində istənilən ölkənin sərəncamından müvəqqəti götürülən və ya müvəqqəti olaraq öz ölkəsinin sərəncamında başqa bir ölkəyə verilən mənbələr deməkdir.

MHS-nin BMT statistikasında qəbul etdiyi qaydalara görə, maddi nemətlərin son istehlakı fərdi və ictimai ehtiyacları ödəmək üçün istifadə edilən maddi nemətlərin dəyəridir.

Maddi nemətlərin son istehlakına aşağıdakılar daxildir:

1. Əhali tərəfindən maddi nemətlərin şəxsi istehlakı, fərdlərin öz gəlirləri hesabına satın aldığı, öz təsərrüfatlarından və digər mənbələrdən aldığı və ya natura olaraq istehlak etdiyi maddi nemətlərin dəyəridir.

2. Əhaliyə mədəni və məişət xidməti göstərən təşkilatlar və şöbələr tərəfindən maddi malların istehlakı deyildikdə - mədəni və məişət xidmətləri olaraq,mədəniyyət, təhsil, mənzil-kommunal xidmətlər sahələrində pulsuz, pullu və ya qismən ödənişli xidmət göstərən təşkilatların, idarə və, sağlamlıq, sosial təminat müəssislərinin və s. maddi xərcləri nəzərdə tutur.

3. Cəmiyyətin kollektiv ehtiyaclarını qarşılayan qurumlar tərəfdən maddi nemətlərin istehlakı - əlaqəli sahələr cəmiyyətə elm, idarəetmə, müdafiə, sığorta və s. sahələrdə kollektiv xidmət göstərən sahələrin maddi xərclərini təmin edir.

Faktiki son istehlak – rezidentlərin istehlak üçün aldığı malların və xidmətlərin dəyərini və ya dövlət qrumları tərəfindən cəmiyyətə təqdim edilən kollektiv

fəaliyyətin dəyərini göstərir. Son istehlakda maliyənin mənbəyindən asılı olmayaraq ev təsərrüfatlarının və dövlət idarəetmə orqanlarının fəaliyyəti həyata keçirilir. Ev təsərrüfatına istehlak mallarının və xidmətlərinin satın alınma xərcləri və dövlət qurumları və qeyri-kommersiya təşkilatları tərəfindən hökumətdən pulsuz alınan mal və xidmətlərin dəyəri daxildir. Son istehlak dövlət idarəetməsində kollektiv xidmətlərin dəyəridir. Yuxarıda deyilənləri cəmləşdirərək demək olar ki, iqtisadiyyatda faktiki son istehlak xərcləri eynidir. Son istehlak xərcləri dövlət qurumlarının, ev təsərrüfatları üçün xidmət göstərən qeyri-kommersiya təşkilatlarının, ev əşyaları və xidmətlərinin sakinlər tərəfindən istehsal edilən istehlak mallarının kollektiv və fərdi istehlakı üçün xərcləridir. Bu qruplaşmalar son istehlak xərclərini kimin maliyyələşdirdiyini göstərir. Bir ailənin son istehlak xərcləri, onun gəlirindən əldə edilən istehlak mallarına və xidmətlərinə xərclərin ölçüsü ilə müəyyən edilir. Dövlət idarəetmə orqanlarının son istehlak xərcləri cari xərcləri ilə müəyyən olunur.

Tədiyyə balansı makroiqtisadi təhlilin və proqnozlaşdırmanın əsas vasitələrindən biridir. Tədiyyə balansı məlumatları hesabat dövründə xarici ticarətin necə inkişaf etdiyini əks etdirir ki, bu da milli valyutanın məzənnəsinə, istehsal, məşğulluq və istehlak səviyyəsinə birbaşa təsir göstərir. Eyni zamanda, tədiyyə balansı ölkədəki xarici investisiyaların miqdarını və formasını və ya digər ölkələrə qoyulmuş investisiyaların mövcud vəziyyətini, habelə xarici borcun qaytarılmasını izləməyə imkan verir. Tədiyyə balansının vacib analitik göstəricilərindən biri də ölkənin milli valyuta məzənnəsini idarə etmək üçün mərkəzi bankın əməliyyatlarını əks etdirən ölkənin qızıl-valyuta ehtiyatlarındakı dəyişiklikdir. Tədiyyə balansı valyuta və xarici ticarətin tənzimlənməsi tədbirləri ilə yanaşı məzənnə, büdcə və pul siyasətinin inkişafında geniş istifadə olunur. Tədiyyə balansı MHS üçün məlumat mənbələrindən biridir və onun məlumatları bir sıra vacib göstəricilər (ÜDM, MG) hesablanarkən birbaşa istifadə olunur.

Tədiyyə balansı, müəyyən bir dövür ərzində ölkənin rezidentləri ilə dünyanın hər hansı bir ölkəsinin rezidentləri arasındakı bütün xarici iqtisadi əlaqələrin statistik qeydidir. Tədiyyə balansı iki prinsipə əsaslanır. Birincisi, müəyyən bir dövür ərzində

bütün xarici iqtisadi fəaliyyəti əhatə etməkdir. İkincisi, ikiqat sayma prinsipidir. Yəni hər əməliyyat həm hesabın debetində, həm də kreditində əks olunur. Nəticədə, bir maddənin bərabərsizliyi digər maddə ilə tarazlaşdırılır. Təcrübədə, ölkəyə vəsait gətirməklə əlaqəli olan bir kredit girişi "+" işarəsi ilə və ölkədəki pul xərcləməsi ilə əlaqəli debet girişi "+" işarəsi ilə qeyd edilir.

Tədiyyə balansı əsasən müəyyən dövr üçün iqtisadi vahidlərin öhdəliklərinin və aktivlərinin siyahısını əks etdirən balansdan fərqlənir. Beləliklə, qeyri-rezidentlər ilə əlaqəli olaraq, rezidentlərin bütün maliyyə aktivlərini və öhdəliklərini əks etdirdiyi tədiyyə balansına müəyyən bir müddətin yığılmasına beynəlxalq investisiya mövqeyi deyilir. Tədiyyə balansı əməliyyatlar nəticəsində yalnız aktiv və öhdəliklərin həcmindəki dəyişikliyi əks olunur.

Tədiyyə balansının hər bir maddəsi əsas və balanslaşdırılmış maddələrə bölünür. Uzunmüddətli kapital axını və cari əməliyyatlar əsas maddələrdə qeyd olunur və cəmləşdirilir. Balanslaşdırma maddələri, valyuta ehtiyatlarının hərəkəti, cari aktivlərdəki dəyişikliklər, beynəlxalq maliyyə institutlarından alınan kreditlər və dövlət borcları daxil olmaqla tədiyyə balansındakı fərqlərin tənzimlənməsi mənbələrini və metodlarını əks etdirir. Balansdakı əməliyyatlar xüsusiyyətinə görə iki hissəyə ayrılır:

1)cari əməliyyatlar

2)kapital və kredit axınlarının balansı.

Əlavə olaraq "səhvlər və buraxılmalar" maddəsi kapital və maliyyə axınlarının balansına əlavə edilir.

Tədiyyə balansı üçün vacib anlayışlarından biri də saldodur .Cari əməliyyatlardakı fərq əhəmiyyətli analitik əhəmiyyətə malikdir və qeyri-rezidentlər ilə rezidentlər arasında real iqtisadi dəyərlərin mübadiləsi arasındakı fərq kimi xarakterizə edilir.

Ölkənin dünya iqtisadiyyatı ilə beynəlxalq iqtisadi əlaqələrinin vəziyyətini ümumiləşdirən tədiyə balansı, makroiqtisadi siyasətin (büdcə-vergi, pul-kredit, xarici ticarət, valyuta) inkişafı üçün mühüm məlumat bazasıdır.

MHS ilə tədiyyə balansı ayrı-ayrılıqda və müstəqil şəkildə inkişaf etsə də, hərzaman bir-birləri ilə uzlaşdırılması zəruridir. Müasir dövrdə tədiyyə balansındakı əməliyyatların uçotu prinsipləri və istifadə olunan təsnifatlar praktik olaraq tamamilə MHS ilə uyğundur. Bu, tədiyyə balansının MHS tərəfindən məlumat mənbəyi olaraq işlədilməsinə imkan yaradır. "Qalan Dünya" hesabında bu hesabın axınlardan istifadə edilir və dünyadakı axınlar mənbələr kimi qeyd olunur. MHS-də qeyri-rezidentlər və rezidentlər arasındakı bütün əməliyyatlar "dünyanın qalan hissəsi" sektorunun hesablarında özünü əks etdirir. Qeyri-rezidentlərlə rezidentlərin arasında cari əməliyyatlar mal və xidmətlər hesablarında, "dünyanın qalan hissəsi"nin ilkin gəliri və cari transfertlərində əks olunur. Metodologiyaya görə , "dünyanın qalan hissəsi" sektorunun hesapları qeyri--rezidentlər baxımından tərtib olunur. Dünyanın qalan hissəsindəki mallar və xidmətlər hesabının istifadəsi malların və xidmətlərin ixracını, resurs bölməsi isə malların və xidmətlərin idxalını göstərir. Bu sektorun başqa bir hesabı olan ilkin gəlir və cari köçürmə hesabının istifadəsinə əmək haqqı, əmlak gəliri, istehsal idxalatı (dotasiya) vergiləri, cari əmlak və gəlir vergiləri, sosial müavinətlər və digər cari transferlər daxildir. Bu iki hesab arasındakı əlaqələndirici maddə "dünyanın qalan hissəsi"nin mal və xidmət saldosudur. Bu maddə "dünyanın qalan hissəsi"nın mal və xidmətlər hesabında balanslaşdırma maddəsi və ilkin gəlir və cari transferlər hesabının resurs hissəsində ilk maddə kimi özünü göstərir. Bu iki hesabla kapital hesabı arasındakı əlaqə cari hesabın qalığıdır. Bu, tədiyyə balansının müvafiq saldosuyla eynidir.

Beləliklə, makroiqtisadi göstəricilər milli iqtisadiyyatın keyfiyyət və ya kəmiyyət və istehsal həcmi baxımından ümumi inkişafını xarakterizə edir. Bunlar məcmu tələb və məcmu təklif arasında əlaqəni əks etdirir, mövcud mənbələr və istehsal potensialı, istehsal olunan məhsul kütləsi və dövriyyədəki pullar arasındakı iqtisadi tarazlığı müəyyənləşdirir və inflyasiyanın, məşğulluğun və sosial təminatın izlənilməsinə imkan yaradır. Makroiqtisadi göstəricilərdən istifadə etməklə iqtisadi siyasət formalaşdırılır, dövlətin iqtisadiyyata müdaxiləsinə ehtiyac müəyyən edilir və inflyasiya və işsizliyin azaldılması üçün tədbirlər hazırlanır. Makroiqtisadi

göstəricilərin təhlili milli iqtisadiyyatın idarə olunmasında, dövlətin maliyyə və pul siyasətinin müəyyən olunmasında vacib rol oynayır.

## 1.2. Makroiqtisadi göstəricilərin statistik təhlilinin əsas iqtiqamətləri

Respublikamızda bazar iqtisadiyyatına keçidin eyni zamanda beynəlxalq miqyasda iqtisadi əlaqələrin genişlənməsi şəraitində MHS-dən iqtisadi fəaliyyət və inkişafla bağlı hadisələrin və proseslərin təhlili üçün metodoloji və informasiya bazası kimi tam istifadə prioritetlərdən biridir. Problemin aktual olması həm də Azərbaycanın beynəlxalq təşkilatlardakı iştirakının genişləndirilməsi ilə müəyyən olunur ki, bu ,makroiqtisadi göstəricilər sahəsində bir sıra tələblərə riayət olunmasını və beynəlxalq standartların istifadəsinə əsaslanan ortaq məlumat bazasının formalaşdırılmasını zəruri edir.

Milli hesablarda toplanan məlumatlar ümumiləşdirilmiş iqtisadi göstəricilərin səviyyəsinin, dinamikasının, strukturunun iqtisadi-statistik təhlil edilməsi və proqnoz olunması üçün zəngin material verir. Bu iqtisadi-statistik analiz vasitəsilə aşağıdakı vacib vəzifələri həll etmək mümkündür:

- ayrı-ayrı sahələr, regionlar üzrə milli iqtisadiyyatın ümumi məhsul həcmini və maddi nemətlərlə xidmətlərin aralıq istehlakını əks etdirmək;
- ölkənin iqtisadi artım tempinin mühüm göstəricisi kimi ÜDM-in dinamikasını öyrənmək;
- iqtisadiyyatda əsas nisbətləri təhlil etmək
- gəlirlərin iqtisadi fəaliyyət iştirakçıları arasında bölüşdürülməsini və onların strukturunu xarakterizə etmək;
- iqtisadiyyatda gəlirlərin yenidən bölüşdürülməsi prosesini təhlil etmək, ikinci dərəcəli gəlirin miqdarını və iştirakçıları üçün bölüşdürmə prosesinin nəticələrini əks etdirmək;
- əhalinin ödəmə qabiliyyətini təşkil edən ev təsərrüfatlarının son gəlirlərinə diqqət yetirərək son gəlirlərin həcmini, dinamikasını və quruluşunu öyrənmək;
- istehlak və iqtisadiyyatda son gəlirlərin yığılma istiqamətini təhlil etmək;
- istehlak və əmanət fondlarının təbii tərkibini öyrənmək;

- qeyri-rezidentlərin ölkə iqtisadiyyatındakı iştirak səviyyəsini xarakterizə etmək;
- xarici investisiyaların iqtisadiyyatda rolunu təhlil etmək;
- ölkənin xarici iqtisadi əlaqələrini, dünya bazarından asılılıq dərəcəsini təhlil etmək.

MHS-də məlumatların statistik təhlili iki istiqamətdə aparıla bilər:

1) MHS-nin ayrı-ayrı hesablarındakı məlumatların təhlili;
2) MHS məlumatlarının digər makroiqtisadi göstəricilərlə nisbətdə təhlili

MHS məlumatlarının təhlili "İstehsal Hesabı" məlumatlarının təhlili ilə başlayır. Bu hesab digər hesabların qurulması üçün əsasdır və məlumatlarının düzgünlüyü və etibarlılığı qalan hesabların məlumatlarının təhlilinin etibarlılığının təminatıdır. İstehsal hesabına əsasən aşağıdakıları həyata keçirmək olar:

- iqtisadi artım dinamikasını ;
- müxtəlif göstəricilər üzrə cari qiymətlərlə ÜDM, ümumi məhsul eyni zamanda milli gəlirin strukturunu öyrənmək:

a) iqtisadiyyat sahələri və sektorlar üzrə;
b) maddi məhsullar və xidmətlər haqqında;
c) iqtisadi rayonlar üzrə;
d) mülkiyyət formaları ilə;
e) qiymət növləri üzrə;
f) dəyər komponentləri ilə (köçürülmüş və ya yeni yaradılmış dəyər).

Təhlili genişləndirmək üçün "İstehsal Hesabı"nın məlumatlarını bu hesabın digər məlumatları əsasında müqayisə olunması lazımdır. Nəticədə aşağıdakı analitik göstəricilər əldə edilə bilər:

- ümumi məhsulun, ÜDM və milli gəlirin maddi tutumu - orta istehlakın ÜDM-yə, ÜDM və milli gəlirə (MG) nisbəti. Bu göstərici nəticə göstəricisinin bir hissəsini istehsal etmək üçün tələb edilən aralıq istehlakın miqdarını əks etdirir;
- ÜDM, ÜMM, MG ilə müqayisədə hesablanmış material səmərəliliyi - material tutumunun tərs göstəricisidir. Xərclənmiş aralıq istehlakın hər vahidinə düşən nəticənin həcmini göstərir.

Təhlilin digər bir istiqaməti olaraq iqtisadiyyatın fərqli sahələri və sektorlarının ümumi məhsulundakı aralıq istehlak payı və elementləri üzrə aralıq

istehlakın strukturu təhlil edilir. Vergi təhlili iqtisadiyyatın vergi yüklülüyünü xarakterizə etməyə və dövlətin vergi siyasətini buna uyğun olaraq tənzimləməyə imkan verir. Əmək haqqı göstəricilərini təhlil edərək ("gəlir əldə etmə" hesabı) əməkhaqqı tutumu (maaşların ÜDM-yə və ya ÜG-ə nisbəti kimi) və əməkhaqqı səmərəliliyini (ÜDM və ya ÜG-in əmək haqqına nisbətindən fərqli olaraq) müəyyənləşdirmək mümkündür.

Əmək haqqı göstəriciləri əldə edilmiş məhsulun bir vahidi üçün əmək haqqının miqdarını əks etdirir. Əmək haqqı məhsuldarlığı göstəriciləri, əksinə, əmək haqqı vahidi üçün nəticənin dəyərini xarakterizə edir .Əmək haqqı məhsuldarlığı və əmək haqqı tutumu iqtisadi səmərəliliyin göstəriciləridir.

MHS əsasında hesablanmış əmək məhsuldarlığı göstəriciləri daha böyük iqtisadi əhəmiyyətə var. Bu göstəricilər məhsulun əmək xərclərinə nisbəti kimi hesablanır. Yuxarıda göstərilən əmək haqlarına əlavə olaraq iqtisadiyyatda işləyən insanların orta sayı, işlənmiş insan saatlarının sayı əmək xərcləri kimi istifadə edilməlidir. Bu göstəricilər əmək məhsuldarlığının saatlıq, gündəlik, aylıq və illik səviyyələrini və dinamikasını təhlil olunmasına imkan verir.

Təhlilin vacib sahələrindən biri əmək məhsuldarlığının artım sürəti ilə əmək haqqının arasında əlaqənin öyrənilməsidir. Əmək məhsuldarlığ artım tempində əmək haqqının artım sürətini üstələyirsə, bu, istehsal səmərəliliyinin artdığını göstərir və iqtisadiyyatın əsasən intensiv inkişaf etdiyini sübut edir.

Xaricdən alınan və xaricə köçürülən istehsal gəlirlərinin analizinə xüsusilə diqqət olunmalıdır. Bu göstərici istənilən ölkənin digər ölkələrlə istehsal əlaqələrini xarakterizə edir. Xaricdə ödənilən gəlirin göstəricisi ölkənin xarici investisiyaları ilə sıx əlaqədədir və dünya bazarından və xarici amillərdən iqtisadi asılılıq dərəcəsini göstərir.

**“Gəlirin ilkin bölüşdürülməsi” hesabının** təhlil izamanı xaricdən əldə edilən və xaricə verilən istehsal gəlirlərinin(mülkiyyət və sahibkarlıq fəaliyyətinə görə əldə edilmiş gəlirlər) təhlilinə xüsusi diqqət verilməlidir. Buna səbəbdən, bu hesab təhlil edilərkən alınan köçürmələrin həcmi və quruluşu, həmçinin alınan və köçürülmüş transfertlər arasındakı fərq kimi yenidən bölüşdürmə balansı təhlil

olunur. Təhlilin xüsusi obyekti iqtisadi fəaliyyət iştirakçılarının son gəlirlərini xarakterizə edən düzəliş edilmiş ümumi qaydada qalan gəlirdir. İstehlak və qənaət fondlarının formalaşmasına xidmət edir.

"Gəlirdən istifadə" hesabının təhlili əsasında iqtisadi vahidlərin son gəlirinin müxtəlif istifadə sahələrini öyrənmək mümkündür. Hesab məlumatlarının təhlili ev təsərrüfatlarının istehlaka çəkdiyi son xərclər ilə həqiqi son istehlakları arasındakı fərqi ölçməyə imkan verir. Hesaba əsasən, onların quruluşu istehlak xərclərini ev təsərrüfatlarının, idarəetmə orqanlarının və qeyri-kommersiya təşkilatlarının son istehlak xərclərinə bölməklə müəyyənləşdirilir. Təhlili dərinləşdirmək üçün son istehlakın son gəlirdən asılılığını xarakterizə edən göstəricilər sistemini hesablamaq lazımdır. Eyni zamanda, ümumi və ya xalis əmanətlərin ÜDM və ya milli gəlirə nisbəti kimi cəmi və xalis əmanətlərin dərəcəsi hesablanmalı və proqnozlaşdırılmalıdır. Onu da qeyd edək ki, əmanətlər faktiki yığımdan "Dünya" ilə kapital köçürmələrinin balansına qədər fərqlənir. Buna görə ümumi (xalis) əmanət dərəcəsinin göstəriciləri ümumi (xalis) əmanət nisbətinin göstəricilərindən fərqlənir. Ev təsərrüfatlarının son istehlak xərclərinin hərtərəfli təhlili zamanı bu xərclərin həcmi, dinamikası və strukturu onların təsnifatının əsas maddələri əsasında nəzərdən keçirilir.

Makroiqtisadi göstəricilərin təhlilində "Kapital ilə əməliyyatlar" hesabının təhlili xüsusi yer tutur. Ölkənin genişlənmiş təkrar istehsal imkanlarını özündə əks etdirir. Bu hesabı təhlil olunan zaman ilk növbədə investisiya maliyyələşdirmə mənbələrinin strukturunu öyrənmək lazımdır. Bu məqsədlə iqtisadi vahidlərin kapital ehtiyatlarında şəxsi və borc vəsaitlərinin payı müəyyənləşdirilməlidir. Milli iqtisadiyyat səviyyəsində xarici kapital qoyuluşlarını və iqtisadiyyatın müxtəlif sahələrindəki istiqamətlərini öyrənmək lazımdır. Xaricdəki daxili investisiyaların araşdırılması, digər xarici ölkələrə kapital axınının önləmək üçün vacib məsələdir. Qeyd edək ki, milli iqtisadiyyat, onun müxtəlif sahələri və sektorları səviyyəsində investisiyalar və qənaət arasında bərabərlik yoxdur. Bu səbəbdən daxili iqtisadiyyatın maliyyələşdirmə qabiliyyətini (xalis kreditlər) və ya maliyyələşdirmə

tələblərini (xalis borc) xarakterizə etməyin əsas əhəmiyyəti var. Bu göstərici ölkənin maliyyə vəziyyətini və iqtisadiyyatının gələcək inkişafı şərtlərini xarakterizə edir.

Fərdi hesablardakı məlumatların təhlili ilə yanaşı təhlilin vacib bir tərəfi hər bir ölkə üçün iqtisadi artım dinamikasını öyrənməkdir. Bu, ÜDM-in fiziki həcminin dinamikasının təhlili əsasında aparılır. Bunun üçün ÜDM-in dinamikasını müəyyən bir dövrün müqayisəli qiymətləri ilə yenidən qiymətləndirmək lazımdır. Qiymətlərin müqayisə olunduğu il hər bir ölkənin statistik orqanları tərəfindən konkret sosial-iqtisadi vəziyyətə əsasən seçilir.

ÜDM-nin müqayisəli qiymətlərlə təkrar qiymətləndirilməsi istehsal (istehsal metodu) və son istifadə mərhələsində (son istifadə metodu) həyata keçirilə bilər. Metod seçimi ilk növbədə tam və etibarlı məlumatların mövcudluğundan asılıdır.

İkiqat deflyasiya ÜDM-i istehsal metodu vasitəsiylə sabit qiymətlər əsasında qiymətləndirməsinin əsasını təşkil edir: bunun üçün əvvəlcə iqtisadiyyatın müxtəlif sahələrinin və sektorlarının ümumi məhsulu, daha sonra aralıq istehlak sabit qiymətlərlə ifadə olunur. Sabit qiymətlərlə ifadə edilən ÜDM, sabit qiymətlərlə aralıq istehlakın sabit qiymətlərlə ümumi məhsuldan çıxılması üsulu ilə əldə edilir. Bu metod aralıq istehlak, ümumi məhsul, eləcə də onların komponentlərinin qiymət dinamikası barədə etibarlı məlumat olduqda istifadə edilir. Bu cür məlumatlar yoxdursa və ya nisbətən daha az etibarlıdırsa, iqtisadiyyatın sektorları və sahələrinin əlavə dəyəri, baza ilinin ümumi əlavə dəyərini bu sahələrlə sektorların ümumi məhsulunun fiziki həcm indeksinə vuraraq ekstrapolyasiya yolu ilə hesablana bilər.

İqtisadiyyatda olduğu kimi ekstrapolyasiya yolu istehsalda olan subsidiyaları və vergiləri yenidən hesablayır. Bu halda, baza ili üçün vergilərin (subsidiyaların) miqdarı vergiyə cəlb olunan (subsidiya verilən) məhsulların fiziki həcm indeksinə vurulur. Bu müddət ərzində vergilər və ya subsidiyalar ədalətli dəyəri ilə uçota alınır.

Alınan və ödənilmiş faizlərin aralarındakı fərqdən ibarət maliyyə vasitəçiləri üçün şərti hesablanmış məhsulları müqayisə olunan qiymətlərlə aşağıdakı kimi yenidən hesablanır: hesabat ilində maliyyə vasitəçilərinin aldıgı və ödədiyi faizlərin faktiki məblәgi ($P_f$) baza ilində maliyyə vasitəçiləri üçün hesablanmış məhsullarının ($R_b$), baza ilində alınan və ya ödənilmiş faiz məbləğinə ($P_b$ ) nisbətinə vurulur.

$$P_{müq} = P_f \frac{R_b}{P_b}$$

Beləliklə, maliyyə vasitəçilərinin şərti olaraq hesablanmış məhsulları ilə alınan və ya ödənilən faizlər arasındakı əlaqənin tədqiq olunan dövr ərzində dəyişmədiyi qəbul edilir.

İqtisadiyyatın bəzi sahələrində ümumi məhsul və aralıq istehlakın müqayisəli qiymətlər yenidən qiymətləndirilməsi iki yolla aparılır:

1) iqtisadi sahələrin məhsulları və xidmətləri üçün məcmu qiymət indekslərindən istifadə etmək;

2) bu sahələrin fiziki məhsul həcmi indeksindən istifadə etmək.

Onu da qeyd edək ki, iqtisadiyyat məhsullarının məcmu qiymətləri və fiziki həcm indeksləri, öz növbəsində, təmsil-əmtəə metodu ilə müəyyən olunur. Buna səbəbdən, bu indekslərin etibarlılığı çox vaxt təmsil olunan malların düzgün seçilməsindən və onların ağırlığından asılıdır.

Müvafiq qiymətlərlə orta istehlakın yenidən qiymətləndirilməsi ümumi məhsulun yenidən qiymətləndirilməsi ilə eyni prinsiplərə əsaslanır. Lakin bu halda, istehsalçı qiymət indeksləri deyil, alıcı qiymət indeksləri yenidən qiymətləndirmə üçün istifadə olunur. Yenidən qiymətləndirmə üçün aralıq istehlakın müxtəlif komponentlərinin nomenklaturası, alış həcmi və qiymətləri barədə etibarlı məlumat tələb olunur. Bəzi ölkələrdə ÜDM-in yenidən qiymətləndirilməsi istifadənin son mərhələsində aparılır. Bu vəziyyətdə son istifadə mərhələsinin bütün komponentləri yenidən qiymətləndirilir. Bu komponentlərdən hər biri məcmu qiymət indeksinə əsasən müqayisə olunan qiymətlərlə yenidən qiymətləndirilir. Xüsusilə, ev təsərrüfatlarının son istehlakı istehlak qiymətləri indeksi ilə ölçülür. Sahiblərinə məxsus mənzil xidmətlərinin dəyəri şərti icarə kimi qəbul edilir və icarəyə verilən mənzillərin tarifləri və qiymətləri əsasında yenidən qiymətləndirilir

Ev təsərrüfatlarının istehsal etdiyi məhsulların, habelə təbii əmək haqqı şəklində ev təsərrüfatlarının aldıqları məhsul və xidmətlərin istehlakı, əsas dövrdə oxşar məhsullların və xidmətlərin orta bazar qiymətlərinə əsasən qiymətləndirilir. Qiymətləndirməni həyata keçirmək üçün lazımi məlumatlar olmadıqda, yenidən

qiymətləndirmə əsas dövrün müvafiq məlumatlarını hesabat dövründə əsas dövrlə müqayisədə bu məhsulların istehlakının fiziki həcm indeksinə vurmaqla həyata keçirilir.

Dövlət idarəetmə orqanlarının son istehlak xərclərinin qiymətləndirilməsi aşağıdakı kimidir:

- dövlət orqanlarının bazara aid olmayan fərdi və kollektiv xidmətləri onların təmin edilməsində çəkilən xərclərin cəmi ilə ölçülür. Buna görə yenidən qiymətləndirmə bu məsrəflərin ayrı-ayrı maddələrinin yenidən qiymətləndirilməsinə əsaslanır
- Dövlət orqanlarının ev təsərrüfatlarına çatdırılması üçün satın aldığı malların və xidmətlərin dəyəri müvafiq olaraq mal və xidmətlər üçün istehlakçı qiymətləri indeksi və ya ümumilikdə istehlakçı qiymətləri indeksi ilə müqayisə olunan qiymətlərlə yenidən hesablanır.

Ev təsərrüfatları üçün xidmət göstərən QKT-lərin son istehlak xərclərinin yenidən qiymətləndirilməsi də yuxarıdakı qaydaya uyğun həyata keçirilir.

Əsas kapitalın ümumi yığılması hesabat ilinin məlumatlarını hesabat ilinin əsas dövrə nisbətən kapital qoyuluşu indeksinə bölməklə yenidən qiymətləndirilir.

Dövriyyə ehtiyatları artımı müqayisə olunan qiymətlərlə də müəyyən edilir. Bu ehtiyatların müqayisəli qiymətlər vasitəsilə təkrar qiymətləndirilməsi müvafiq göstəricilərə əsaslanmalıdır. Məsələn, sənayedə hazır məhsul ehtiyatları istehsalçıların, xammalın, əsas və köməkçi materialların, yanacaq və enerji ehtiyatlarının topdan qiymətləri ilə - faktiki alış qiymətləri vasitəsilə hesablanır. Qiymət indeksləri mövcud deyilsə, yenidən qiymətləndirmə sənayenin topdansatış qiymətlərinin məcmu indeksindən istifadə olunması vasitəsilə həyata keçirilir.

Kənd təsərrüfatında ehtiyatlar birbaşa qiymətləndirmə yolu ilə yenidən qiymətləndirilir (faktiki ehtiyatların baza dövrünün qiymətlərinə vurulması). Bitməmiş kənd təsərrüfatı məhsullarının dəyərindəki dəyişiklik əsas dövrün bitməmiş istehsalını payızlıq əkin sahələrinin dəyişməsi və heyvandarlığın artım indeksinə vurmaqla müəyyən edilir.

Maddi məhsulların və xidmətlərin ixrac ilə idxalının müqayisə edilə bilən qiymətlərlə yenidən hesablanması bu qaydada aparılır: əvvəlcə ixrac və idxal

məlumatları hər hansı bir ölkədəki xarici ticarət nomenklaturasına uyğun olaraq qruplaşdırılır. Sonra təmsil olunmuş malların qiymət indeksləri hər mal qrupu üçün deflyator-qiymət indeksləri ilə müəyyən olunur. İdxal və ixrac bu qrup indekslərinə əsasən hər bir mal qrupu üçün yenidən qiymətləndirilir. Ölkənin sabit ixrac qiymətləri ilə ixrac və idxalının ümumi həcmi bütün mal qrupları üçün ixrac dəyərləri ilə idxal dəyərlərinin müqayisəli qiymətlərlə cəmlənməsi ilə müəyyən edilir.

# II FƏSİL. ÜMUMİ DAXİLİ MƏHSULUN DİNAMİKASININ STATİSTİK QİYMƏTLƏNDİRİLMƏSİ METODLARI

## 2.1. İstehsal, bölgü və son istifadə mərhələlərində ÜDM və onun komponentlərinin dinamikası göstəricilərinin işlənməsi metodları

Milli Hesablar Sisteminin vacib göstəriciləri Ümumi Daxili Məhsul və Ümumi Milli Gəlirdir. Bu göstəricilər ölkənin sosial və iqtisadi həyatının ümumi meyllərini və xüsusiyyətlərini müəyyənləşdirməyə və müşahidə etməyə imkan yaradır. Ümumi Daxili Məhsul, ölkənin rezidentləri tərəfindən müəyyən müddət ərzində bazar qiymətlərində istehsal edilmiş malların və xidmətlərin dəyərini əks etdirir. Bu göstərici ölkənin iqtisadi fəaliyyətinin son nəticəsini özündə əks etdirir və dövlətin iqtisadi cəhətdən potensialının müəyyənləşdirilməsi və iqtisadi artım tempini xarakterizə etmək üçün istifadə edilir. Ümumi Daxili Məhsul iqtisadi fəaliyyətin müxtəlif aspektlərinin statistik təhlilidir (məsələn, büdcə kəsiriylə ÜDM-ni müqayisəsinə əsaslanan maliyyə siyasəti, enerji istehlakının ümumi daxili məhsulla müqayisəsinə əsaslanan enerji istifadəsinin səmərəliliyi və s.).

> "...Ümumi daxili məhsul əsas kapital istehlakını nəzərə alır. Buna görə o, ümumi bir göstəricidir. Əgər onu çıxsaq, xalis daxili məhsulun göstəricisini əldə edirik. Onu da qeyd edək ki, praktikada əsas kapital istehlakını hesablamaq çox çətindir, buna görə üstünlük ümumi göstəriciyə verilir..." (Aslanov A.M.,2005, s.36).

Bu göstərici ölkə daxilindəki təsərrüfat subyektlərinin fəaliyyətlərinin nəticələrini özündə əks etdirir.

Ümumi Milli Gəlir ölkə sakinləri tərəfindən alınan ilkin gəlirlərin məcmusudur. Bu göstərici həm məzmun həm də kəmiyyət cəhətdən ümumi daxili məhsuldan fərlənir

Məzmun cəhətdən, ümumi daxili məhsulu son məhsul və xidmətlərin axını kimi və milli gəliri, sakinlərin ümumi daxili məhsulu və eyni zamanda qalan ümumi daxili məhsulun istehsalında iştirakı zamanı əldə etdikləri ilkin gəlir kimi qiymətləndirmək olar.

Kəmiyyət olaraq MG ümumi daxili məhsuldan xaricdən əldə olunmuş "ilkin gəlir balansı" məbləğinə görə fərqlənir. Nəticə olaraq, ümumi milli gəliri və xalis milli gəliri hesablamaq üçün alqoritm aşağıdakı kimidir.

Ümumi milli gəlir = ümumi daxili məhsul + xaricdən gələn ilkin gəlirin qalığı,

Xalis milli gəlir = xalis daxili məhsul + xaricdən gələn ilkin gəlirin qalığı.

Ümummilli gəlir, eyni zamanda iqtisadiyyatın bütün sahələrində ilkin gəlirlərin bölgüsündə qeydə alınan ilkin gəlirlərin qalıqlarını cəmləməklə hesablana bilər.

Xatırladaq ki, ümumi daxili məhsul (ÜDM) istehsal olunan bütün malların və xidmətlərin yekun dəyərinə və ya onlar üçün ödənilən bütün xərclərin cəminə bərabərdir.. ÜDM-in həcmi istehsal metodu ilə müəyyən edildikdə, onun əsas komponentləri ümumi məhsul və xidmətlərin buraxılışı; əlavə dəyər; aralıq istehlak; istehsal və idxal subsidiyalarıdır; istehsal və idxal vergilərdir.

Malların və xidmətlərin ümumi istehsalı dedikdə rezidentlər tərəfindən istehsal edilmiş malların və xidmətlərin dəyəri nəzərdə tutulur.

MHS-də müəyyənləşdirildiyi kimi, aşağıdakıları ümumi buraxılış anlayışına daxil etmək olar:

- təyinatından asılı olmayaraq bütün mallar (istehsal olunmamış məhsullar xaricində iqtisadi bölmələrə göndərilən mallar, habelə istehsalçının dövriyyə fondu ehtiyatlarının artırılması da daxil olmaqla özünün son istehlakı və ya toplanması üçün istehsal olunan məhsullar);

- digər institsional iqtisadi vahidlərə, xüsusən də dövlət idarəçiliyi və qeyri-kommersiya xidmətlərinə göstərilən xidmətlər;

- ev təsərrüfatlarının özünə xidməti və muzdlu ev qulluqçuları tərəfindən göstərilən xidmətlər.

Ev təsərrüfatlarının üzvləri tərəfindən bir-birlərinə göstərilən pulsuz ev xidmətləri (yemək bişirmək, paltar yuymaq, ev təmizləmək, məişət texnikalarını təmir etmək ) MHS-də istehsal sahəsinə daxil deyil.

İstehsal və idxal vergiləri malların və xidmətlərin istehsal edilməsi və idxalı və ya istehsal amillərinin istifadəsi ilə əlaqədar dövlət qurumları tərəfindən istehsal vahidlərindən alınan əvəzsiz, məcburi və geri qaytarılmayan ödənişlərdir. Bunlar

əvəzolunmaz sayılır, çünki dövlət ödəməni həyata keçirən fərdi vahidin əvəzi verilmir. Bununla birlikdə, vergilər hesabına toplanan vəsait digər bölmələrə köçürülə bilər və ya ictimai tədbirlərə xərclənə bilər. Gəlirdən asılı olmayaraq müəssisə və təşkilatlar mal və xidmətlərin istehsal və idxalına tətbiq olunan vergiləri ödəyirlər. İstehsal və idxal vergiləri məhsul və idxal vergilərindən və digər istehsal vergilərindən ibarətdir. Məhsula vergilər müəssələrin istehsal ,idxal etdiyi yaxud satdığı mal və xidmətlərin miqdarı və ya dəyəri ilə nisbətdə alınan vergilərdir. Müəssisə və təşkilatların istehsalda iştirakı nəticəsində ödəməli olduqları məhsullara vergilər xaricindəki bütün vergilər istehsaldakı digər vergilərə daxil edilir. Belə vergilərə müəssisənin mənfəətindən və ya digər gəlirlərindən vergilər daxildir və istehsalın səmərəliliyindən asılı olmayaraq dövlət büdcəsinə ödənilir. Dotasiyalar mal və xidmətlərin istehsalı, satışı və idxalı, habelə müəyyən iqtisadi və sosial işlərin həyata keçirilməsi üçün istehsal amillərinin istifadəsi ilə əlaqədar olaraq dövlət tərəfindən müəssisələrə pulsuz və geri qaytarılmayan əsaslarla ödənişlərdir. Dotasiyalar istehsal və idxal üçün dotasiyalara bölünür.

İstehsal və idxal subsidiyaları dövlət tərəfindən verilən və müəssisələrin cari istehsal fəaliyyəti ilə əlaqədar geri qaytarılmayan cari ödənişlərdir. Bura kapital köçürmələri ilə əlaqəli əsas kapitalın yığılmasını maliyyələşdirmək üçün yaradılmış investisiya subsidiyaları daxildir. İstehsal subsidiyaları öz növbəsində məhsul və istehsal üçün digər subsidiyalara bölünür. Məhsul subsidiyaları ümumiyyətlə sakinlər tərəfindən istehsal olunan, satılan və ya idxal olunan mal və xidmətlərin miqdarı və ya dəyəri ilə mütənasib olaraq ödədikləri subsidiyalardır. Müəssisələr tərəfindən istehsal olunan məhsulların satış qiymətinin orta istehsal xərclərindən aşağı olması nəticəsində daimi itkilər üçün dövlət büdcəsindən müntəzəm ödəmələr, ixrac və idxal subsidiyaları və s. aiddir. Müəssisələr istehsal amillərindən istifadə ilə əlaqədar dövlət qurumlarından digər istehsal subsidiyalarını alır. Digər istehsal subsidiyaları aşağıdakı əsas növləri əhatə edir:

- xüsusi fərdlərin (yeniyetmələr, əlillər) əməyinшт istifadəsi ilə əlaqədar verilən subsidiyalar;

- digər istehsal amillərinin istifadəsi ilə əlaqədar ödənilən subsidiyalar (məsələn, istənilən xammalın, enerji növünün istifadəsini stimullaşdırmaq üçün);

- ətraf mühitdə çirklənmənin azaldılmasına yönəlmiş subsidiyalar (məsələn, sənaye tullantılarının əlavə emalı xərclərini ödəmək üçün).

ÜDM-ni bölgü metodu ilə hesablanarkən aşağıdakılar onun tərkibinə daxil edilir

1) işçilərin əmək haqqı;

2) istehsal və idxaldan xalis vergilər

3) ümumi mənfəət və ümumi qarışıq gəlir.

İşçilərin əmək haqqı, işəgötürənlərin işçilərinə hesabat dövrü ərzində gördükləri işin əvəzinə natura və pul şəklində ödəməli olduqları ödənişdir. Əmək haqqının özü iki hissəsi var : 1) əmək haqqı; 2) işəgötürənlər tərəfindən ödənilən social sığorta haqları. Əmək haqqı - maliyyələşdirmə mənbəyindən asılı olmayaraq bonuslar və müavinətlər daxil olmaqla bütün növ və nağd ödənişlərdən ibarətdir (qeyri-iş günləri üçün işçilərə ödənişlər - növbəti məzuniyyət, tətillər və s. daxil olmaqla). Əmək haqqı vergilər və işçilərdən tutulan digər məbləğlərdən əvvəl hesablanmış məbləğdir. Bu halda rezident müəssisə və təşkilatların tərəfindən işçilərə verilən maaşlara baxılır. Sosial sığortaya ayırmalar işəgötürənlər tərəfindən edilir. Məqsəd gələcəkdə işçilərin sosial təminatını gücləndirməkdir. Sosial yardım dövlət sosial sığorta orqanları, dövlət və qeyri-dövlət pensiya fondları, sığorta təşkilatları və ev işəgötürənləri tərəfindən verilir. Bu, ev təsərrüfatlarının gəlirlərinin azalması ilə nəticələnən hallarla bağlıdır və bunlara daxildir: 1) xəstəliklər, zədə, əlillik, doğuş, , qocalıq və s. səbəblərə görə müalicəyə ehtiyac; 2) himayədə olanların saxlanılması zərurəti (ər və ya arvad, uşaqlar, yaşlı qohumlar, əlillər və s.); 3) təqaüdə çıxma, işsizlik, xəstəlik, zədə, doğuş, tam iş günü işləyə bilməməsi; 4) ailə başçısının ölümü; 5) təhsil xərclərinin ödənilməsinə ehtiyac; 6) aztəminatlı ailələrin (təqaüdçülər, çoxuşaqlı ailələr və s.) mənzil xərclərini ödəmək imkanının olmaması.

Ümumi mənfəət və ümumi qarışıq gəlir - əmək xərcləri, istehsal və idxal vergiləri çıxıldıqdan sonra ümumi artıq gəlirdir. Ümumi mənfəət (qarışıq gəlir) əməyin ödənişi, istehsal və idxal vergiləri, istehsal və idxalat üçün ödənilən subsidiyalar və mülkiyyət gəlirlərini əks etdirir. Ev təsərrüfatlarına məxsus, lakin bir

şirkətin bir hissəsi olmayan müəssisələrin üzvləri üçün ödənilməmiş əmək xərcləri ola bilər. Qarışıq gəlirlər əhalinin fərdi təsərrüfatlardan əldə etdiyi gəlirlərdən və kiçik fərdi sahibkarların gəlirlərindən ibarətdir. Ümumi mənfəət və qarışıq gəlir istehlak edilmiş əsas kapital çıxılmadan müəyyən edilir. Ümumi mənfəət və ümumi qarışıq gəlirdən istehlak edilmiş əsas kapitalın dəyəri çıxıldıqda, xalis mənfəət və xalis qarışıq gəlir əldə edilir.

**ÜDM son istifadə metodu** ilə aşağıdakı komponentlərin cəmi kimi müəyyən edilir:

1. mal və xidmətlərin son istehlak xərcləri;
2. ümumi qənaət (qənaət);
3. Mal və xidmətlərin ixrac-idxal balansı.

Mal və xidmətlərin üçün son istehlak xərcləri, ev təsərrüfatları üçün istehlak malları və xidmətlərinə, həmçinin dövlət idarəetmə müəssisələrinin (büdcə təşkilatlarının) və ev təsərrüfatları üçün xidmət göstərən qeyri-kommersiya təşkilatlarının fərdi və kollektiv istehlakına cavab verən mal və xidmətlər xərcləridir. Ev təsərrüfatlarının son istehlak xərclərinə aşağıdakılar aiddir:

1) istehlak mallarının (mallarının) və xidmətlərinin alınması xərcləri;

2) əmtəə şəklində alınmış malların və xidmətlərin, hədiyyələrin istehlakı;

3) ev təsərrüfatlarının son istehlak məqsədilə istehsal edilən mallların və xidmətlərin istehlakı.

Ev təsərrüfatlarının son istehlak xərclərinə əhali tərəfindən işgüzar səfərlər və turist səfərləri zamanı xaricdən aldıqları mallar və xidmətlər daxil edilməli və qeyri-rezidentlərin təyinat ölkəsində eyni formada alqı-satqısı çıxılmalıdır. Ev təsərrüfatlarının son istehlak xərcləri, istehlak malları və xidmətlər üçün faktiki olaraq öz hesablarına ödədikləri fondlarla müəyyən edilir

Aktivlərin silinməsi - işarəylə göstərilir. Əsas kapitalın ümumi yığılmasının hissələri aşağıdakılardır*:*

1) əsas kapital alındıqda buna satınalma qiyməti deyilir. Həmin qiymətə mülkiyyət hüquqlarının ötürülməsi ilə əlaqəli bütün xərclər (agentlər ,vəkillər, və

digər vasitəçilər tərəfindən əmlak əməliyyatları, komissiya və rüsumlar, və s. əvəzində göstərilən xidmətlərin dəyəri) daxil edilir;

2) öz istifadəsi üçün istehsal olunan əsas kapital- əsas qiymətlərlə yaxud da onun istehsalına sərf olunan xərclərlə.

Dövriyyə fondu ehtiyatlarının dəyişməsi bitməmiş istehsalın və hazır məhsulun (malın) dəyərindəki dəyişiklik deməkdir. Ehtiyatların dəyərindəki dəyişikliklər ehtiyatların dəyəri ilə ehtiyatların dəyərinin arasında olan fərq olaraq təyin edilməlidir. Eyni zamanda, məhsullar ayrılma və çıxarma zamanı mövcud olan qiymətlərlə qiymətləndirilməlidir. Amma praktikada hesabat dövrü ərzində hesabat üçün ayrılmış və inventardan götürülmüş məhsullar barəsində məlumat almaq çox çətindir. Bu baxımdan, ehtiyatlardakı dəyişikliklər, müəssisənin dövrün başlanğıcındakı və sonundakı hesabatları arasındakı fərq kimi müəyyən edilir. Başqa sözlə, səhmlərdəki dəyişiklik, dövrün sonundan dövrün başlanğıcına qədər olan məlumatları çıxarmaqla müəyyənləşdirilir. Bu vəziyyətdə, ehtiyatlar ehtiyatda olarkən qiymətlərdəki dəyişikliklərin dəyərindəki dəyişikliklərə göstərdiyi effekt aradan qaldırılmalıdır. Qiymətli əşyaların xalis alınması, istehsal və ya istehlak üçün deyil, dəyəri qorumaq məqsədilə satın alınan əşyalar kateqoriyasındadır. Bunlara qiymət (dəyər) zamanla artan qiymətli daşlar, qiymətli metallar və (qızıl külçələr və sənaye istifadəsi üçün nəzərdə tutulmuş qızıl və qiymətli daşlar xaricində), zərgərlik əşyaları, antik əşyalar kolleksiyaları və s. aid edilir. Bu göstərici qiymətli əşyaların alqı-satqısı (atılması) arasında olan  fərq kimi müəyyənləşdirilir.

## 2.2. Ümumi daxili məhsulun qiymətləndirilməsi və statistik modelləşdirilməsi metodları

ÜDM və onun tərkib hissələrinin müqayisəli qiymətlərlə qiymətləndirilməsi, iqtisadiyyatın inkişafının öyrənilməsi və struktur dəyişikliklərinin təhlili üçün əhəmiyyətlidir. Bu qiymətləndirmənin dəqiqliyi və onların əsasında çıxarılan nəticələr yüksək dərəcədə statistik hesablama vasitələrindən və üsullarından asılıdır.

Xərclər üsuluyla hesablanan ÜDM və onun komponentlərinin intensiv olaraq qiymətləndirilməsi əsasən iki üsulla müəyyən olunur:

- cari qiymətlərlə ifadə edilmiş hesabat dövrünün məlumatlarının müvafiq qiymət indeksləri vasitəsilə deflyatorlaşdırılması;
- cari qiymətlərlə baza ilinin məlumatlarının müvafiq fiziki həcm indeksləri ilə ekstrapolyasiyalaşdırılması.

ÜDM-in sabit qiymətlərlə qiymətləndirilməsi həm istehsal baxımından, həm də xərclər baxımından edilə bilər. Qiymətləndirmə ÜDM-nin tərkib hissələrini sabit qiymətlərlə qiymətləndirmək və onları toplamaqla aparılır. Qiymətləndirmə metodunun seçilməsi qiymətləndirilən göstəricinin təbiətindən və mövcud məlumatlardan asılıdır.

ÜDM əsasən 3 metodla hesablanır:

1)məsrəflər üzrə;

2)gəlirlər üzrə;

3)əlavə edilmiş dəyər üzrə

I.ÜDM-un məsrəflər üzrə hesablanması:

1) əhalinin istehlak xərcləri - (C),

2) ümumi xüsusi investisiyalar - (I),

3) əmtəə və xidmətlərin dövlət alışı - (G),

4) xalis ixracat (idxal və ixracın fərqi) - (Xn).

Deməli,

ÜDM = C + I + G + Xn

II.ÜDM-un gəlirlər üzrə hesablanması:

1) əmək haqqı - (W),

2) faiz – (r),

3) renta – (R),

4) mənfəət – (m).

Bu gəlirlərin cəminə amortizasiya ayırmaları (d), dolayı vergilər (T) və mülkiyyətdən vergi (T1) də əlavə edilir. Onda

ÜDM = W + r + R + m + d + T + T1

III.ÜDM-un əlavə dəyər üzrə hesablanması:

Bu üsul istehsal metodudur və ÜDM-un bir il ərzində istehsal olunmuş son məhsulun hər mərhələsində əlavə edilmiş dəyərlərinin məcmusudur. Əlavə olunmuş dəyər müəssisələrin istehsal etdiyi məhsulların dəyəri ilə digər müəssisələrin xammal, material, yəni ki, aralıq məhslların alınması üçün sərf olunan vəsait arasında olan fərqdir. Buna görə də ÜDM-un kəmiyyəti bütün istehsalçı müəssisələrin əlavə etdiyi dəyərlərin məcmusuna bərabərdir.

Mkroiqtisadi göstəricilər MHS ilə əlaqəli məzmuna malikdir. Bununla belə, bu göstəricilərdən bəziləri təhlil prosesində ümumiləşdirilə bilər: ölkənin ÜDM hesablanan zaman aralıq istehlak təyin olunmur. Aralıq istehlak nəzərə alınaraq ÜDM-in qiyməti şişirdilir. Makroiqtisadi mənada desək ÜDM, bir il ərzində ölkədə istehsal olunan son məhsul və xidmətlərin bazar dəyərini özündə göstərir. Son məhsul ÜDM-nin cari istehsaldan xaric olunan və istehlakı ödəmək məqsədilə istifadə edilən hissəsidir. Bəzi hallarda bu göstəricilərə xalis ixrac və fondların amortizasiyası daxildir. Ümumi mənada, son məhsul cəmiyyət və şəxsi istehlakın ehtiyacını ödəmək məqsədilə istifadə edilən xidmət və ya məhsuldur..

Qiymət indeksi ümumi qiymət səviyyəsində əldə edilən makroiqtisadi göstəricidir.Ölkədə yeni dəyərin real artımını müəyyənləşdirmək üçün istifadə edilir. Bu indeksin köməyi ilə inflyasiyanın ÜDM artımına təsirini aradan qaldırmaq mümkündür. Cari ilin qiymət indeksini müəyyən etmək üçün, cari ilin qiymət indeksini baza ilinin qiymətinə bölürük və "%" -lə ifadə edirik.

İqtisadiyyatın mövcud vəziyyətini makroiqtisadi baxımdan müəyyənləşdirməkdən ötrü bir sıra müvafiq göstərcilər qiymətləndirilir. ÜDM bu

sahədəki dəyişikliklərin göstəricilərindən biridir. ÜDM-in tərkib hissələrindəki dəyişikliklər nəticədə bu göstəricidə kəmiyyət dəyişikliyinə səbəb olur. Öyrəndiyimiz qaydaya görə, ÜDM investisiya, istehlak, , dövlət xərcləri və xalis ixracat kimi elementlərdən ibarətdir. Hər halda, bu göstəricilər arasındakı əlaqə ümumi ÜDM-ə bərabər olmalıdır. Bunlar bu cür ifadə edə bilərik:

$$Y = C + I + G + Nx$$

Bu asılılıq onun göstəricisidir ki, ÜDM-un müxtəlif elementləri üzrə kəmiyyətdə dəyişiklik bu eyniliyi dəyişməyəcəkdir.

Bütün üsullarla hesablanan ÜDM-nin həcmi eynidir. Ancaq, hər bir hesablama üsulunda istifadə olunan məlumat mənbələri bir-birindən fərqlidir .Buna görə də məlumatların mənbələrinin etibarlılıq dərəcəsi fərqlənmiş olur. Bu görə də müxtəlif üsullarla hesablanan ÜDM-nin göstəricilərinin həcmlərinin arasında bəzən statistik kənarlaşma deyilən fərqlər əmələ gəlir.

İqtisadçılar cari qiymətlərlə hesablanan ÜDM-a, nominal ÜDM deyirlər. ÜDM baza dövrü qiymətləri ilə hesablandığı halda real ÜDM olur. ÜDM deflyatoru ölkənin daxilində istehsal edilən son istehlak məhsullarının qiymətində olan dəyişikliyi özündə göstərir.

MHS-də faktiki qiymətlərlə hesablanan bir sıra çox vacib makroiqtisadi göstəriciləri müqayisəli (sabit) qiymətlərdə ifadə edilən dəyər göstərcilərinə çevirmək məqsədilə deflyator indekisindən istifadə edilir.Deflyator cari dövrdə dəyər ifadəsində təqdim edilən göstəricilərin əsas dövrün göstəricilərinə çevrilməsi üçün istifadə edilən əmsaldır.

ÜDM deflyatoru aşağıdakı qaydada hesablanır:

$$UDMDeflyatoru = \frac{NominalUDM}{RealUDM} \cdot 100$$

Real ÜDM-un müəyyən olunmasını aşağıdakı misalın üzərində nəzərdən keçirək:

Misal: Yalnız iki növ əmtəə: qələm və albom istehsal edən xəyali iqtisadiyyatın fəaliyyətinin nəticələrini əks etdirən cədvəl 2-yə nəzər yetirək.

Məhsulların əldə olunmasına sərf edilmiş xərclərin ümumi məbləğini tapmaq üçün hər bir növ məhsulun miqdarının uyğun olaraq bu məhsulun birinin qiymət göstəricisinə hasillərinin cəmin hesablamaq lazımdır. Belə ki, əgər 2017-ci il üçün biri 1 manat və 2 manata satılan 100 qələm və 50 albom istehsal edilmişdirsə, onda əhalinin bunları əldə etmək üçün çəkdiyi xərclər 200 manata bərabər olmuşdur. Mövcud qiymətlərlə ifadə olunan istehsal edilən əmtəələrin və xidmətlərin dəyərinnin bu cür göstəricisi **nominal ÜDM-dir**

**Cədvəl 2: 2017- 2019-cu illərdə əmtəə vahidinin satış qiymətləri və onların buraxılışının həcmi**

| **Real və nominal ÜDM, illər** | | **İstehsalın həcmi və qiymətlər** | |
|---|---|---|---|
| **Qələmin qiyməti, manat** | **Qələm istehsalının həcmi** | **Albomun qiyməti, manat** | **Albom istehsalının həcmi** |
| 1 | 100 | 2 | 50 |
| 2 | 150 | 3 | 100 |
| 3 | 200 | 4 | 150 |
| Nominal ÜDM-un hesablanması | | | |
| 2017 | (1m. x 100 qələm ) + (2m. x 50 albom) = 200m. | | |
| 2018 | (2m. x 150 qələm ) + (3m. x 100 albom) = 600m. | | |
| 2019 | (3m. x 200 qələm ) + (4m. x 150 albom) = 1200m. | | |
| Real ÜDM-un hesablanması (Bazis ili 2001) | | | |
| 2017 | (1m. x 100 qələm ) + (2m. x 50 albom) = 200m. | | |
| 2018 | (1m. x 150 qələm ) + (2m. x 100 albom) = 350m. | | |
| 2019 | (1m.x 200 qələm ) + (2m. x 150 albom) = 500m. | | |
| ÜDM-un deflyatorunun hesablanması | | | |
| 2017 | (200m. / 200m. x 100) = 100 | | |
| 2018 | (600 m./ 350m. x 100) = 171 | | |
| 2019 | (1200m. / 500m. x 100) = 240 | | |

**Mənbə:** Aslanov A.M., Aslanova T.A., Əsas iqtisadi – statistik göstəricilərin izahlı lügəti,Bakı 2004, əsasında müəllif tərəfindən tərtib edilmişdir

Qiymət səviyyəsindən asılı olmayaraq istehsal edilən məhsul həcminin qiymətləndirilməsində bazis adlanan müəyyən bir dövürün sabit qiymətləriylə hesablanmış əmtəə və xidmətlərin dəyərini ifadə edən **real ÜDM** anlayışından istifadə olunur. Bazis dövrünün qiymətlərinin istifadəsi müxtəlif illərdə məhsul buraxılışının həcminin kəmiyyətcə müqayisə edilməsinə imkan yaradır.

Real ÜDM göstəricisi qiymət dəyişməsinin təsirinə məruz qalmadığından onu istehsal artımının ölçülməsində istifadə edilə bilər.

Real ÜDM-a məhsul və xidmət istehsalının faktiki həcmi daxil olduğundan o, əhalinin tələbatını ödəmək baxımından iqtisadiyyatın imkanlarını nominal ÜDM-a

nisbətəndə daha çox ifadə edir. Ancaq söhbət istehsal artımında olan dəyişikliklərdən gedərsə, bir qayda olaraq əvvəlki dövrə nəzərən müqayisədə real ÜDM-un dəyişməsinin faizlə ifadə edilmiş göstəricisi tətbiq olunur.

Deflyator indeksi hesablanmasının əsasında aqreqat qiymətі indeksinin Paaşe tərəfindən müəyyən olunmuş aşağıdakı düsturu təşkil edir:

$$\mathbf{t}\rho = \frac{\boldsymbol{\Sigma p1q1}}{\boldsymbol{\Sigma p0q1}}$$

**Paaşe indeksinin** iqtisadi mahiyyəti odur ki, kəsirin surəti cari dövr qiymətləri ilə bu dövrdə olan məhsul dövriyyəsini göstərir.Məxrəc isə baza dövrünün qiymətləri ilə cari dövrdə satılan məhsulların dəyərin ifadə edir. Paaşe indeksi düsturundan deflyator kimi istifadə olunmasının üstünlüyü ondan ibarətdir ki, dəyər göstəricisi üçün mövcud qarşılıqlı əlaqə fiziki həcmə də aiddir. Paaşe düsturu ilə qiymətləndirmə indeksi MHS prinsiplərinə tam uyğundur.Belə ki, ondan istifadə edilməklə hesablanmış fiziki həcmin indeksi sabit çəki ilə fərdi fiziki həcm indekslərindən hesablanmış orta indeksdir

Dəyər indeksin Paaşenin qiymət indeksinə bölməklə digər bir alman iqtisadçısı Laspeyres tərəfindən müəyyən olunmuş fiziki həcm indeksi əldə edilir. Laspeyres indeksinə nəzərən Paaşe indeksinin daha böyük üstünlüyünün olmasa da ,müəyyən hallarda Laspeyres düsturu ilə qiymətləndirmə indeksindən istifadə edilir. Qiymət indeksinin hesablanma təcrübəsinə əsaslanaraq bu nəticəyə gəlmək olar ki, Paaşe düsturunun vasitəsilə hesablanmış qiymət indeksi inflyasiyanın sürətinin azalması,Laspeyres düsturunun vasitəsiylə hesablanmış qiymət indeksi isə tam əksinə,inflyasiyanın sürət artması meyli ilə özünü göstərir. Bu “Qerşenkron effekti” adlanır. Bunu aradan götürmək üçün kompromis həll olaraq Fişerin qiymət indeksi düsturundan istifadə olunması tövsiyə edilir və Laspeyres və Paaşenin aqreqat indekslərinə əsaslanaraq aşağıdakı indeksi formalaşdırmışdır

$$\mathbf{t}\rho = \sqrt{\frac{\boldsymbol{\Sigma p1q0}}{\boldsymbol{\Sigma p0q0}} \text{x} \frac{\boldsymbol{\Sigma p1q1}}{\boldsymbol{\Sigma p0q1}}}$$

Bu düstura görə qiymət indeksinin hesablanması əsas və cari dövrdə məhsul və xidmətlərin dəsti üzrə əsas dövrə nisbətdə cari dövrdə qiymət dəyişməsinin

dəyərləndirilməsi aparılır. Belə olan halda əsas dövür və cari dövrün tərkib hissələrinin strukturunda fərqlər aradan qalxır. Bu isə müqayisə bazasından asılı olmaq baxımından indekslər nəzəriyyəsinin tələblərini ödəməyə və "Qerşenkron effekti"nin təsirini aradan qaldırmağa imkan yaradır. Fişer indeksindən uzun müddəti əhatə edən zaman müddətində əmtəələrin strukturunda baş verən dəyişiklikləri ifadə edən meylləri nəzərə alınmaqla,qiymət indeksinin hesablanmasında istifadə olunur. ÜDM və onun tərkib hissələri qiymətləndirilərkən sabit qiymət olaraq ilin cari orta qiymətləri əsas götürülür. MHS-in metodologiyasına əsasən hərbeş ildə bir dəfə olmaqla müqayisə məqsədilə əsas hesab edilmiş ili dəyişmək lazımdır. Belə ki, daha uzun dövrdə həm ÜDM-nin strukturunda həm də qiymətlərdə mühüm dəyişikliklər olur. Bu səbəbdən sabit qiymətlərdən uzun dövr üçün istifadə olunması ÜDM-un dinamikası göstəricilərinin təhrif edilməsinə gətirib çıxardır.

**İkiqat deflyatorlaşdırılma metodu**ndan isə sabit qiymətlər vasitəsilə əlavə dəyərin hesablanmasında istifadə olunur. Bu metodun mahiyyəti odur ki, müvafiq qiymət indeksi ilə cari qiymətlərlə hesablanan ümumi buraxılış ilə aralıq istehlakın ardıcıl deflyasiyası həyata keçirilir. Ölkələrin bəzilərində əlavə dəyərin sabit qiymətlər vasitəsilə hesablanması üçün sadə metodlar istifadə olunur. Məsələn, Avropa İttifaqı, habelə bir sıra MDB dövlətlərində sabit qiymətlərlə hesablanan əlavə dəyər umumi buraxılış indeksi ilə əlavə dəyərin cari qiymətlər ilə deflyatorlaşdırılması nəticəsində hesablanır. Yəni, birqat deflyatorlaşdırılmadan istifadə olunur. Ekstrapolyasiyalaşdırılma metodunda məhsul və xidmətlərin əsas dövrdə olan dəyəri onların fiziki həcminin əsas dövrə nisbətdə cari dövrdə dəyişməsini özündə əks etdirən indeksə bölünür.

Birbaşa qiymətləndirmə metodunda hesabat ilində sabit qiymətlərlə istehsal olunmuş, yaxud istifadə edilmiş əmtəələrin miqdarı əsas götürülmüş dövrün müvafiq qiymətlərinə vurmaqla hesablama aparılır. Bu metoddan daha çox kənd təsərrüfatının və hasilat sənayesi məhsullarının istehsal olunması və istifadəsində göstərcilərin hesablanması məqsədi üçün istifadə olunur. Belə ki, bu sahələrdə

məhdud sayda eynitipli məhsullar istifadə edilir. Statistikanın bu sahəsində mühüm məhsulların kəmiyyəti və qiymətləri barədə məlumatlar olur.

"*...ÜDM-nin daimi qiymətlərlə qiymətləndirməsi onun dinamikası barədə məlumatın əldə olunmasına imkan yaradır. Bunun üçün, hesablanan rüblük fiziki həcm indeksi və ÜDM deflyatoru vasitəsi ilə müəyyən dövrdə iqtisadiyyatda orta qiymətlərin dəyişməsinə aid olan göstəricilərdən istifadə olunur..." (Курашева T.,2011,c.132).*

<u>ÜDM-in fiziki həcm indeksi</u> onun baza dövrü qiymətləri ilə qiymətləndirilən cari dövrdə dəyərin onun baza dövründə olan dəyərınə bölünməsi ilə hesablanır

$$I_q^{GDR} = \frac{\sum q_t p_0}{\sum q_0 p_0}$$

Burada, $I_q^{GDR}$ - ÜDM-in fiziki həcmi indeksi;

$\sum q_t p_0$ - baza dövrünün qiymətIərində ÜDM-in cari dövrdə dəyəri;

$\sum q_0 p_0$ - ÜDM-in baza dövrü üçün dəyəri.

ÜDM-in deflyatoru ÜDM dəyər indeksinin fiziki həcm indeksinə bölünməsi ilə, yaxud, ÜDM-in cari dövrdə dəyərinin onun baza dövrü qiymətlərində qiymətləndirilmiş cari dövrdə olan dəyərinə bölünməsi ilə alınır:

$$I_p^{GDP} = \frac{\sum q_t p_t}{\sum q_0 p_0} : \frac{\sum q_t p_0}{\sum q_0 p_0} = \frac{\sum q_t p_t}{\sum q_t p_0}$$

$I_p^{GDP}$ - ÜDM-in defliyatoru;

$\frac{\sum q_t p_t}{\sum q_0 p_0}$ - ÜDM-in qiymət indeksi;

$\sum q_t p_t$ - ÜDM-in cari dövrə olan dəyəri.

ÜDM-nin istehsal və yaxud sahə üsulu ilə ölçülmə bilər. ÜDM gəlirlər üsulu əsasında müəyyən olunarkən isə istehsal olunmuş məhsulların və xidmətlərdən formalaşmış ilkin gəlirlərin, yəni işçilərin əmək haqqının ,ümumi mənfəətin, istehsala və idxala əsasən xalis vergilərin və qarışıq gəlirlərin cəminə diqqət yetirilir. İlkin gəlirlər institusional vahidlərin istehsal prosesində iştirakının nəticəsində

yaranmış gəlirlərdən və mülkiyyətdən götürülmüş gəlirlərdən ibarətdir. ÜDM-in ölçülməsinin xərclər üsulu məhsul və xidmətlərin son istehlakın, əsas kapitalın ümumi yığımın, maddi dövriyyə vəsaitlərinin ehtiyatlarının dəyişməsin, qiymətlilərin (sərvətlərin) əldə edilməsin və məhsul və xidmətlərin ixracı və idxalı saldosunu özündə birləşdirir.

Son istehlak məqsədilə istehsal olunmuş əmtəələrin və xidmətlərin cari qiymətlə ifadə olunmuş dəyəri nominal ÜDM-ni əks etdirir. Əgər müəyyən bir **t** ilində istehsal olunan i məhsulunun (və ya xidmətin) miqdarın $\mathbf{Q_{it}}$, qiymətin isə $\mathbf{F_{it}}$ ilə qeyd etsək, nominal ÜDM ($\overline{Y}_t$) riyazi şəkildə aşağıdakı düsturda göstərilə bilər:

$$\overline{Y}_t = \sum_{i=1}^{n} \mathbf{F_{it}} \times \mathbf{Q_{it}}$$

Fiziki istehsal həcmi dəyişmədiyi halda da ümumi qiymətlərin səviyyəsində yüksəlmə nominal ÜDM-in artmasına gətirib çıxaracaq. Bu aspektdən iqtisadi artım hesablanarkən nominal ÜDM əvəzinə daha məqbul olaraq sabit qiymətlərlə hesablanan real ÜDM-nin göstəricilərinə istinad edilir. Bunun üçün ÜDM-in fiziki həcmi indekslərindən istifadə olunur

Əvvəlki dövrə əsasən müqayisə olunarkən cari dövrdə ÜDM-in fiziki həcmi indekslərini hesablamaq üçün həmin dövrdəki ÜDM-nin əvvəlki dövr qiymətləri ilə kəmiyyətin ÜDM-in əvvəlki dövrdəki həcminə bölmək tələb olunur .Uzunmüddətli dövr üçün müvafiq olaraq zəncirvari indekslər metodundan istifadə edilir. Nəticədə etibarı ilə hər bir il üçün ölkənin daxilində istehsal edilmiş son məhsul və xidmətlərin qiymətlərinin dəyişməsini göstərən ÜDM deflyatoru ($D_t$) tapılır və aşağıdakı düsturun vasitəsilə nominal ÜDM real ÜDM-ə ($Y_t$) çevrilir:

$$Y_t = \overline{Y}_t \ / \ D_t$$

Yuxarıdakı düsturda nominal ÜDM-ni tənlikdə sol tərəfə keçirsək:

$$\overline{Y}_t = Y_t \times D_t$$

Nəticə olaraq, real ÜDM həcmində faizlə dəyişmə ilə deflyatorun faizlə dəyişməsi cəmi təxminən nominal ÜDM-nin faizlə dəyişməsinə bərabər olur. Yəni, deflyator 4% artıb, real ÜDM 1% artırsa, bu nominal ÜDM-nin təqribən 5% artımı deməkdir.

İqtisadi artım (T) isə ÜDM-nin illik artımı templəri ilə ölçülür və cari ilin və baza kimi götürülmüş ilinin ÜDM göstəriciləri arasında fərq baza kimi götürülmüş ilinin ÜDM göstəricisinə bölürük:

$$T = \frac{Y_t - Y_{t-1}}{Y_{t-1}} \times 100\%$$

Başlanğıc ilində ÜDM-i $Y_0$, n il sonrakı ÜDM-i isə $\mathbf{Y_n}$ ilə göstərsək, iqtisadi artımı göstərən məchulu tapmaq məqsədilə müntəzəm istifadə olunan törəmə düsturlar aşağıdakılardır:

$$Y_n = Y_0 \times (l + T)^n$$

$$Y_0 = \mathbf{Yn / (l + T)^n}$$

$$T = \sqrt[n]{Y_n/Y_0} - 1$$

$$n = \log_{(1+T)} (Y_n/Y_0)$$

Məsələn, bir ölkədə ÜDM-in həcmi başlanğıc ildə 30 milyard ABŞ dollarıdırsa, 8 ildən sonra mövcud səviyyəsinin iki qatı (60 milyard) olması üçün bir illik iqtisadi artımın tempi belə hesablanır

$$T = \sqrt[n]{Y_n/Y_0} - 1 = \sqrt[8]{60/30} - 1 = 0{,}09$$

Beləliklə, hədəfə çatmaq üçün illik 9%-lə iqtisadi artım tempi lazım olur.

İqtisadi nəzəriyyədə bəzi hallarda ÜDM ilə bərabər ümumimilli gəlir anlayışından istifadə edilir. ÜMG hesablananda ölkənin digər ölkələrlə iqtisadi əlaqələri nəticəsində meydana çıxan ilkin gəlirlər saldosu müəyyənləşdirilib nəzərə alınır ki, bu göstərici də digər ölkələrə verilən həmçinin digər ölkələrdən alınan ilkin gəlirlərin fərqi qədər ÜDM-dən fərqlənmiş olur.

Hər nəfərə düşən real ÜDM həcmi $(\acute{g}_t)$ də ölkənin əhalisinin sayına $(P_t)$ bölünərək tapılır. Hər bir nəfərə düşən real ÜDM-nin artım tempi cari və baza ilinin göstəricilərinin arasında fərqin baza ilinin göstəricisinə bölünməsi yolu ilə hesablanır:

$$T = \frac{\acute{g}_t - \acute{g}_{t-1}}{\acute{g}_{t-1}} \times 100\%$$

Alınan nəticəyə əsasən adambaşına düşən real ÜDM-nin artım tempi (faizlə) təxminən real ÜDM-nin həcmində faizlə dəyişmə ilə əhali sayındakı faizlə dəyişmənin arasındakı fərqə bərabərdir.

**ÜDM-dən düzəldilən dinamika sırasının** davamlılığını qoruyub saxlamaq üçün baza dövrünü dəyişdirərkən, ondan əvvəllki dövrlərin sabit qiymətlərlə qiymətləndirilən göstəricilərin əsas götürülmüş yeni dövr sabit qiymətləri ilə qiymətləndirilən ÜDM sırası ilə birləşməsini təmin etmək tələb olunur. Əsas dövr dəyişdirildikdə ÜDM-dən düzəldilən dinamika sırasını yeni sabit qiymətli sıraya çevirmək üçün iki metod vardır. 1-ci metodun mahiyyəti budur ki, ÜDM dinamikasın yeni qiymətlərlə qiymətləndirmək məqsədilə iki növ s-qiymətlə hesablanmış qiymət indeksləri arasında əlaqələndirmə edilir və bundan sıranın deflyatorlaşdırılmasında istifadə olunur. Bu qiymət indekslərindən ÜDM-nin yeni s-qiymətlərlə yenidən qiymətləndirilməsi, onun tərkib hissəsin isə cari ilin qiymətləri vasitəsilə qiymətləndirməsi məqsədi ilə deflyator kimi istifadə edilir. İkinci metodda isə ÜDM-nin dinamika sırasın yeni sabitqiymətlərlə qiymətləndirilməsi üçün onun zəncirvari fiziki həcmi indekslərindən istifadə olunur. Bu metodun aşağıdakı xüsusiyyətləri var:

Nəzərdən keçirdiyimiz iki metodun da nəticəsi eyni alınmalıdır. İnflyasiyanın yüksək tempi və iqtisadiyyatda güclü struktur dəyişikliklər baş verdiyi halda ÜDM-nin dinamikasını dəyərləndirmək üçün sabit qiymət olaraq əvvəlki dövrün qiymətlərindən istifadə olunur. Buna nəzərən əvvəlki illə nisbətdə fiziki həcm indeksi hesablanır. Bu baxımdan həmin dövr üçün fiziki həcm indeksi zəncirvari qayda ilə hesablanmış illik indekslrin vurulması üsulu ilə əldə olunur. Əsas dövr qiymətləri vasitəsilə ÜDM-nin dinamika sırasın müəyyənləşdirmək üçün onun cari qiymətlərlə əsas dövrdəki həcmin əsas dövrə görə hesablanmış fiziki həcm indeksinə vurmaq tələb olunur.

Əsas dövrə əsasən hesablanan indekslərdən istifadə olunması müəyyən üstünlüyə malik olur. Bu, ÜDM və onun struktur hissələrinin müqayisəsin həyata keçirməyə imkan yaradır. Bununla belə, böyük struktur dəyişmələr şəraitində əsas dövrə əsasən hesablanan indekslər təhrif olunmaya gətirib çıxara bilir. Belə ki, baza dövründən uzaqlaşma artdıqca əmtəənin fiziki həcmi və qiyməti arasındkı əlaqəsi daha çox pozulmuş olur. Bununla bağlı olaraq əvvəlki ilin çəkisi ilə hesablanan indekslərdən istifadə edilir. Nəticə olaraq, zəncirvari və əsas dövrün qiymətlərnə

əsasən hesablanmış indekslərdən hansının seçilməsi üçün aşağıdakıları nəzərə almaq lazımdır

- hər il üçün aparılan hesablamaların dəqiqliyinin təmini etmək problemi qarşıya qoyulduğu halda üstünlüyü dəyişən çəkili zəncirvari indekslərə verilir;
- uzun dövr üzrə indekslərin müqayisəsin təmin etmək kimi vəzifə qarşıya qoyulduqda əsas dövrə əsasən hesablanan sabit çəkili indekslərə üstünlük verilir.

# III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİN STATİSTİK TƏDQİQİ

## 3.1. Ölkənin əsas makroiqtisadi göstəricilərin dinamikasının statistik təhlili

Makrosəviyyədə ölkə iqtisadiyyatının vəziyyəti makroiqtisadi göstəricilərlə xarakterizə olunur. Bu göstəricilər sistemi iqtisadiyyatın inkişafın əks etdirdiynə görə onlara bütün səviyyələr üzrə fəaliyyətlərin nəticələri onlara daxil olunur. Hökumətin müxtəlif qərarlar qəbul etməsi üçün makroiqtisadi göstəricilər çöx əhəmiyyətlidir və sahibkarlar, vətəndaşlar üçün, eləcə də xarici tərəfdaşların iqtisadi fəaliyyətində istiqamət olaraq özünü göstərir. İqtisadi artımın dayanıqlı olması üçün bütün makroiqtisadi məlumatların gələcəkdə təhlil olunması və iqtisadiyyatın zəif nöqtələrinin aşkar edilməsi məqsədi ilə məcmulaşdırılaraq toplanılması mühümdür. Makroiqtisadi idarəetmənin vacib aspektləri monetar, fiskal, sosial siyasət vasitələrinin yardımı ilə iqtisadiyyatın dövlət tənzimlənməsini həyata keçirməkdir. İqtisadi inkişafın məqsədi iqtisadi artımın əsasında ölkənin əhalisinin həyat fəaliyyətinə münbit şərait yaratmaq üçün daha çox imkanlarla təmin edilməsidir. Bunu üçün əmək haqqlarının artırılması, anti-nflyasiya tədibrlərinin hazırlanması, işsizliyin səviyyəsinin minimumlaşdırılması, işgüzar fəallığın yüksəldilməsi və s. bir sıra vəzifələrin həll olunması zəruridir. Makroiqtisadi inkişafın məqsədlərinə nail olmaq üçün hökumət iqtisadi siyasətin tərkib hissəsi kimi çıxış edən tədbirlər sistemi, müxtəlif üsul və vasitələr işləyib hazırlayır. İqtisadi siyasətin əsas vasitələri büdcə, valyuta sistemi ,vergi, maliyyə-kredit, və s. daxildir. İqtisadi siyasət ölkənin iqtisadi inkişafının modelinə əsasən sadalanan vasitələrin məcmusu ilə müxtəlif üsulların köməkliyi ilə həyata keçirilir.

Ölkədə aparılmış iqtisadi-siyasətin səmərəliliyin qiymətləndirmək üçün bir çox makroiqtisadi göstəricilərdən istifadə olunur. Bununla yanaşı aparılan iqtisadi siyasətin nəticələrin dəyərləndirmək məqsədilə milli hesablar sistemində birləşən bir sıra ümumiləşdirici göstəricilərdən də istifadə edilir. Mürəkkəb təsərrüfat əlaqələrin ,iqtisadi prosesləri və hadisələri, səciyyələndirmək üçün bir-birini tamamlayan, etibarlı göstəricilər sistemi mövcudur. MHS, iqtisadiyyatda bütün əməliyyatları və

ölkə sərəncamında qalan bütün xərcləri özündə ehtiva edir. Onun əsasında iqtisadi artımın tempi, inflyasiya tənzimlənməsi, yığımın və investisiyanın səmərəliliyi və s. sahəsində müxtəlif proqnozlar və iqtisadi modellər işlənərək yaradılır. Milli iqtisadiyyatın səviyyəsində müxtəlif iqtisadi subyektlərin fəaliyyətinin nəticəsi MHS-nin müxtəlif göstəricilərinin əsasında müzakirə olunur. Bu sistem gəlirlər, istehlak, yığım və kapital xərclərinin həcmin müəyyənləşdirmək məqsədilə nəzərdə tutulmuş qarşılqılı əlqəli kompleks göstəricili və balans şəklində cədvəllərdir. Onun köməkliyi ilə vacib makroiqtisadi göstəricilər hesablanır. Şərti olaraq əsas m/göstəricilər axınlar və ehtiyatlar göstəricisinə ayrılır.

Ölkənin iqtisadi həyatında fəaliyyətdə olan iqtisadi subyektlərin və ölkənin sosial-iqtisadi inkişafının xarakteristikası müəyyən edilmiş göstəricilər dəsti vasitəsilə təqdim olunur. Bu göstəricilər haqqında informasiyaların toplanılması, nəşri ,qruplaşdırılması, təhlil edilməsi ilə **Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi** məşğul olur.Məhsul və xidmətlərin müxtəlif növ təsərrrüfat subyektlərinin səviyyəsində istehsal olunmasına baxmayarq tam iqtisadiyyat səviyyəsində səmərəlilik və iqtisadi fəaliyətin digər nəticələrin və parametrləri müəyyənləşdirmək üçün əsas m/göstəricilər - hesablanır. Başqa sözlə, ümumi daxili məhsul ölkələrin həmçinin beynəlxalq təşkilatların statistikası üçün mühüm makroiqtisadi, eləcə də ictimai rifahın dolğun şəkildə rəsmi olaraq müəyyənləşdirilmiş göstəricisidir. Ümumi daxili məhsul və onunla qarşılıqlı əlaqədə olan göstəricilərin köməkliyilə ictimai məhsulu hesablamaq dövlətin iqtisadi nəbzini əsaslanmağa imkan yaradır. Müxtəlif göstəricilərin dəsti konkret zaman kəsiyində istehsal həcminin ölçülməsinə və iqtisadiyyat fəaliyyətini müəyyənləşdirən birbaşa amilləri aşkarlamağa imkan yaradır. Müəyyən dövrdə milli gəlir həcminin müqayisə olunaraq ,uzunmüddətli perspektivdə iqtisadiyyatın inkişafı meyllərini xarakterizə etmək mümkündür. Eyni zamanda ümumi daxili məhsulun və onunla qarşılıqlı olaraq əlaqəli olan göstəricilərin sisteminin verdiyi informasiyalar iqtisadi fəaliyyətinin yaxşılaşdırılmasına istiqamətlənmiş dövlətin müvafiq sahədə siyasətinin formalaşdırmaq və həyata keçirmək üçün əsas olaraq çıxış edir.. Qeyd etmək lazımdır ki, bu göstəricilər səhiyyə ,ətraf mühit, təhsil, sosial

müdafiə,əmək keyfiyyəti və s. ilə bağlı digər sosial göstəricilərin sistemi vasitəsilə tamamlanır. Ölkənin rəsmi statistikasının məlumatları bu göstəricilərin dinamikasında müsbət dəyişikliklərin baş verdiyin göstərir (cədvəl 3).

**Cədvəl 3:Azərbaycan Respublikasının ümumi daxili məhsulu və onun əhalinin hər nəfərinə düşən məbləği**

| İLLƏR | ÜDM milyon manatla | Adambaşına düşən ÜDM manatla |
|---|---|---|
| **2000** | 4718,1 | 593,2 |
| **2005** | 12522,5 | 1494,3 |
| **2010** | 42465,0 | 4753,0 |
| **2015** | 54380,0 | 5706,6 |
| **2016** | 60425,2 | 6269,6 |
| **2017** | 70337,8 | 7226,0 |
| **2018** | 80092,0 | 8156,2 |
| **2019** | 81681,0 | 8247,0 |
| **2020** | 72432,2 | 7262,8 |

**Mənbə**: Azərbaycanın milli hesabları, statistik məcmuə, ARDSK, Bakı, 2019 (https://www.stat.gov.az/) Mill hesablar sistemi və tədiyyə balansı (https://www.stat.gov.az/source/system_nat_accounts/)

Ölkənin sosial və iqtisadi həyatında həyata keçirilən köklü surətdə bazar islahtları Ümumi Daxili Məhsulun həcmində, həmçinin onun xüsusiyyətlərində mühüm dəyişikliklərə gətirib çıxarıb.

Cədvəlin məlumatlarından da göründüyü kimi 2010- 2019- cu illər üçün ölkənin sosial - iqtisadi vəziyyətin xarakterizə edən **ümumi daxili məhsulun dinamikasında** mühüm dəyişikliklər olmuşdur. Beləliklə, 2010- cu il üçün ölkə üzrə ÜDM-nin həcmi 42.5 mln. manat müəyyən olunmuşdur, 2015 - cı il üçün bu rəqəm 54.4 mln. manat, 2019-cu üçün 81,6 mln.manat müəyyən edilmişdir,2020-ci il üçün isə 72.4 mln manat olmuşdur.

2015-ci il ,2010-cu ilə nəzərən Ümumi Daxili Məhsulun həcmi 11.9 mlrd. manat, faizlə desək- 28%, 2019-cu ilsə təxminən 2 dəfə artımla müşayəd olunmuşdur.Amma, 2015-2016-cı illər üzrə ÜDM-də dəyişiklik 3,1%-lik azalma ilə müşahidə olunmuşdur. Əlbəttə ki, bunun səbəbləri təbii-iqtisadi qanunauyğunluqlar, ölkənin maliyyə-kredit sistemində baş vermiş dəyişikliklər, neft qiymətlərinin aşağı düşməsi və s. olmuşdur. 2015-ci il ilə müqayisədə 2016- cı ildə əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun həcmində azlama 4,2% təşkil etmişdir.

Əlavə 1-ə əsasən Respublikamızın rəsmi statistik məlumatlarına əsasən son illərdə **ÜDM-nin manat, avro, dollar illə dinamikası artımla** müşahidə olunmuşdur 2010-2019-cu illərdə ÜDM üzrə orta mütleq artım surəti 72432,2−42465,0= 29.967.2 milyon manata təşkil etmişdir.

Bu qısa araşdırmadan da aydın olur ki, ölkə üzrə iqtisadi həyatın müxtəlif sahələrində həyata keçirilən islahatlar iqtisadi inkişafa dinamiklik vermiş və Ümumi Daxili Məhsulun səviyəsi və həcmi daima artmış 2020-ci ildə is Qlobal pandemiya səbəbilə nisbətən aşağı enmişdir.Pandemiyanın təsirlərinə baxmayaraq gələcək perspektivdə ölkənin iqtisadi potensialının reallaşdırılması imkanların əhəmiyyətli dərəcədə artır.

Ümumiyyətlə, 2010-2020-cu illər üzrə AR-ın ümumi daxili məhsulu və onun bir nəfərə düşən məbləğinin dinamikasında dəyişikliklər 1 saylı xətti qrafikdə daha əyani görmək olar.

**Qrafik 1: ÜDM və adambaşına düşən ÜDM-nin faizlə dinamikası**




**Mənbə:** Azərbaycanın milli hesabları, statistik məcmuə, ARDSK, Bakı, 2020 əsasında müəllif tərəfindən hazırlanmışdır.

Müasir dövrdə AR-ın sosial-iqtisadi inkişaf nəticələri iqtisadiyyatın stabil fəaliyyət göstərdiyini və bir çox makroiqtisadi göstəricilərin dinamikasının yaxşılaşdığını göstərir. Sosial-iqtisadi inkişafda keyfiyyət üzrə indekslərin yaxşılaşmasına iqtisadiyyatda baş verən kompleks struktur dəyişiklikləri, yerli

istehsalın rəqbət qabliyyətliyinin artırılmasına istiqamətlənmiş genişmiqyaslı tədbirlər müsbət təsirini göstərmişdir.

Əlavə 2-də verlilən məlumatlara əsasən ,2018-ci il üzrə **ölkədə ümumi milli gəlirin səviyyəsi** 75956,3 mln manat, 44680,2 mln dollar və ya 37800,5 mln avro olmuşdur. Ümumi milli gəlirin həcmi əvvəlki ilə nisbətən 2018-ci ildə manatla 8277,7 mln manat yaxud 10,8% artmışdır. Ümumilli Gəlir neft qiymətlərinin düşməsi səbəbi ilə 2015-ci üzrə əvvəlki illə müqayisə etsək 8% enmiş, lakin 2016-cı ildən sonra artma fazasına qayıtmışdır.

Ölkənin həm sosial həm də iqtisadi həyatında həyata keçirilən tədbirlər əhalinin iqtsadi fəallığının da yüksəlməsinə imkan yaratmışdır. Yəni ki, 2019-cu ildə, 2010-cu ilə görə müqayisədə **iqtisadiyyatda məşğul əhalinin sayısı** təxminən 14%, 2018-ci ilə görə müqayisəsində isə 1,2% artmışdır. Ölkədə əhali gəlirlərinin artımı iqtisadi artımın əsas mənbəyi kimi yığım imkanlarının da genişlənməsinə şərait yaratmışdır. Belə ki, əgər 2014-cü ildə **əhali gəlirləri** 39,4 mlrd. manat olmuşdursa, 2017-ci ildə bu 49,1 mlrd. manata, 2018-cı ildə isə 53,6 mlrd. manata qalxmışdır. Yəni müqayisə edilən dövrdə əhali gəlirləri təqribən 1,3 dəfəyə qədər artmışdır. Əhalinin bir nəfərə düşən gəlirlərinin səviyyəsi 2010- cu il üzrə 2866,1 manat, 2015-ci il üzrə 4380,7 manat, 2018-ci il üzrə isə digər dövrlərə nəzərən daha çox, yəni ki 5234,8 manat həcmində olmuşdur. Rəsmi statistika məlumatları təhlil olunan dövrdə **iqtisadiyyatın real sektorlarında istehsal olunmuş məhsulun həcminin və miqyasının** xeyli artdığını göstərir. Belə ki, 2016-cı il üzrə ölkənin sənayesində istehsal edilmiş məhsulun həcmi təqribən 32 mlrd. manat, 2019-cu il üzrə isə 46 mlrd. manat səviyyəsində olmuşdur. Əhalinin gəlirləri və işçilər üzrə orta aylıq əmək haqqının artımı istehlakın həcminin artmasını təmin etmişdir. Faktiki olaraq ölkə əhalisi üzrə son istehlak 2015-ci illə müaqayisədə 2019-cı ildə təxminən 2 dəfə, əvəllki illə müqayisədə isə 13,1% artım göstərmişdir. Əhalinin alıcılıq qabliyyətinin də artması pərakəndə ticarət dövriyyəsi miqyasının genişlənməsinə müsbət təsirini göstərmişdir. İstehsalda texnoloji səviyyənin yüksəlməsi və ölkənin mühüm m/göstəricilərində elmi-texniki innovasiyaların hesabına artımın təmin olunması iqtisadi inkişafda strateji resurslardan biridir. Bunun üçün, müxtəlif mənbələrin

hesabına ƏK-a yönəldilən investisiyaların həcminin artmasına xüsusi diqqət yetirilmişdir. Nəticədə təhlil olunan dövrdə əsas kapitala yönəldilmiş investisiyaların səviyyəsi 2015-ci ilə nisbətən 2 dəfə qalxmışdır. Dünya iqtisadiyyatında qloballaşma meyllərinin üstünlük təşkil etdiyi müasir dövrümüzdə Respublikamız bu vəziyyətdən faydalanmaq üçün dünyanın çox sayda ölkələrilə xarici iqtisadi münasibətlərini formalaşdırmışdır. Ölkənin üzrə xarici ticarətin dövriyyəsinin həcmi daha da artmış,idxal-ixrac əməliyyatlarından bu vəya digər sosial-iqtisadi problemlərin həlli üşün məharətlə istifadə olunmuşdur. İnflyasiya ölkənin sahibkarlarının fəallığının artmasına, əhalinin yaşayış səviyyəsi və biznes fəaliyyətinin effektivliyinə müxtəlif istiqamətlərdə təsir göstərməkdədir. Bu səbəbdən ölkədə idarə edilən inflyasiya səviyyəsinə nail olmaq mhüm vacib hədəflərdən biri hesab olunmuş və onun üçün maliyyə-kredit sferasında müxtəlif vasitələr geniş istifadə olunmuşdur. İnflyasiya səviyyəsin xarakterizə edən **istehlak malları və əhaliyə göstərilən ödənişli xidmətlərin** üzrə qiymət indeksi 2010-cu il üçün 105,7%, 2015-ci il üçün 104,0%, 2017-cı ildə 112,9%, 2018-ci ildə 102,3% olmuşdur. Göstəricilərin dəyişməsindən göründüyü kimi ölkə üzrə inflyasiyanın aşağı dərəcəsinin təmin olunması, inflyasiyanın fundamental amillərin və monetar təsirinin düzgün olaraq qiymətləndirilməsi, effektiv pul-kredit siyasətinin həyata keçirilməsi iqtisadiyyatda dayanıqlı inkişafı təmin etmişdir. Araşdırma göstərir ki, ölkədə makroiqtisadi inkişafın davamlılğının təmin olunmasının möhkəm təməli qoyulmuş və bu istiqamədə əhəmiyyətli imkanlar əldə olunmuşdur. Bu imkanlara əsasən investisiyaların həcminin artırılmasın, qeyri--neft sektorunun və iqtisadiyyatın inkişafında keyfiyyət amillərinin rolunun gücləndirilməsin, əməyin keyfiyyəti və məhsuldarlığın yaxşılaşdırılmasının, kiçik və orta biznesin inkişafını aid etmək olar. Fikrimcə, qeyd olunan ehtiyatlardan istifadə ölkənin iqtisadiyyatının texnoloji, istehsalat və innovasiya xarakterini gücləndirərək ümumi daxili məhsulun dinamikasında davamlı artım meylini təmin etməyə imkan yarada bilər.

Nəticə edibarilə, MHS-nin vacib makroiqtisadi göstəricilərinin həcmi və quruluşunun təhlil edilməsi ölkənin iqtisadiyyatının miqyasının genişləndiyin, sabit iqtisadi artımın təmin olunduğunu, istehlak və həyat səviyyəsinin, yığım

potensialının və maliyyələşdirilmə imkanlarının, eləcə də investisiya qoyuluşunun artdığın göstərir.

## 3.2. Ölkənin makroiqtisadi göstəricilərinin çoxamilli model əsasında təhlili

Qeyd olunduğu kimi ümumi daxili məhsul ölkədə sosial - iqtisadi fəaliyyətin ümumi şəkildə xarakterizəsini təqdim edir. Məlumdur ki, ölkədə aparılan bazar islahatları iqtisadiyyatda bütün sahələrində müsbət nəticəsini göstərmişdir. Bu da iqtisadiyyatın sahələrinin m/göstəricinin formalaşmasında mühüm sahələrin yeri və rolunu ciddi surətdə dəyişmişdir.

Ölkə üzrə **ÜDM həcminin ümumi inkişafı proqnozunu və meylini** verməklə əhəmiyyətli məlumatlar almaq olar. Bu məqsədlə dinamika sıralarının aşağıda əksini tapan düzxəttli trend modelini tətbiq etməklə:

$$\overline{yt} = ao + a1t$$

dinamika sırasını təyin etmək mümkündür. Ən kiçik kvadratlar üsuluna əsaslanmaqla, düzxətli trend modeli parametrlərini aşağıdakı düsturlarla müəyyənləşdirmək olar:

$$a_{\circ} = \sum .t\,2 \cdot \sum .y - \sum .\, t \cdot \sum yt \,/\, n \sum t\,2 - \sum t \cdot \sum t$$

$$a_1 = n \sum .\, ty - \sum .\, t \cdot \sum .y \,/\, n \sum .\, t\,2 - \sum .\, t \cdot \sum .\, t$$

Burada: y - dinamika sırası səviyyələrini; n - səviyyə sayını ; t – isə vaxtı göstərir. Dinamika sıralarında düzxətli trend modeli parametrlərinin hesablanmasının texnikası sadələşdirilə bilər. Bunun üçün şərti sıfır üsulu tətbiq olunmaqla t-yə elə qiymətləri verilir ki, cəmi sıfıra bərabər olsun, yəni: $\sum t$=0. Cədvəl 6-da səviyələrin sayı tək olduğundan (n=9), ortada yerləşən dövrü (2015) şərti olaraq sıfır qəbul edirik. Ölkə üzrə ÜDM həcminin ümumi inkişafı meylini və 2020-2021- ci illər üzrə proqnoz etmək üçün aşağıda verilmiş cədvəli düzəltmək olar:

Bu məlumatlara görə:

$$a0 = \sum y : n = 570{,}5 : 9 = 63{,}4$$

$a1 = \sum yt : \sum t\ 2$ = 219,7 : 60 = 3,66 bərabər olacaq. Belə olduğu halda trend modelinin tənliyi

$\bar{yt}$= 63,4 +3,7 t kimi olacaq.

Bu trend modelinə əsaslanmaqla demək olar ki, ölkədə **ÜDM həcmi** 2011-2019-cu illərdə (bəzi illər əvəlki illə müqayisədə azalmışdır) artmışdır və artımın ildə orta-hesabla 3,7 milyard manat olduğunu görürük

**Cədvəl 6: ÜDM-un həcminin ümumi inkişaf meyli**

| İLLƏR | ÜDM-nin həcmi mlrd.manatla | T | $t^2$ | Yt | Nəzəri səviyyələr,$\bar{yt}$ |
|---|---|---|---|---|---|
| 2011 | 52,1 | -4 | 16 | -208,4 | 48,76 |
| 2012 | 54,7 | -3 | 9 | -164,1 | 52,42 |
| 2013 | 58,1 | -2 | 4 | -116,2 | 56,08 |
| 2014 | 59,0 | -1 | 1 | -59 | 59,74 |
| 2015 | 54,3 | 0 | 0 | 0 | 63,4 |
| 2016 | 60,4 | 1 | 1 | 60,4 | 67,0 |
| 2017 | 70,3 | 2 | 4 | 140,6 | 70,66 |
| 2018 | 80,0 | 3 | 9 | 240 | 74,32 |
| 2019* | 81,6 | 4 | 16 | 326,4 | 77,98 |
| CƏMİ | 570,5 | 0 | 60 | 219,7 | |

**Mənbə:** Azərbaycan rəqəmlərdə, statistik məcmuə, ARDSK, Bakı ,2019. (http://www.stat.gov.az )

Düz xətli trend modelinin əsasında 2020-2021-ci illər üçün ölkə üzrə ÜDM-un proqnozlaşdıtılmış qiyməti aşağıdakı kimi olacaqdır:

2020-ci üzrə : $\bar{\bar{y}}20$ =63,4 +3,66 x 5 =81,7 milyard manat;

2021-ci il üzrə: $\bar{\bar{y}}21$ = 63,4 + 3,66 x 6 =85,36 milyard manat.

ÜDM ölkənin iqtisadiyyatına görə qurulan “İstehsal" hesabının əsas balanslaşdırıcı maddəsidir və son istehlakın bazar qiymətlərinə əsasən hesablanır. Onun həcmi əmtəəyə qoyulan vergilər ,eləcə də nəqliyyat və ticarət əlavələri daxil olunmaqla alıcıların ödədiyi qiymətlərə əsasən hesablanır. 2018-ci ildə ölkəmizin iqtisadiyyatı üçün qurulmuş **“İstehsal" hesabı** əlavə 4-də verilən məlumatlarla xarakterizə olunub.

Cədvəldən məlum olduğu kimi, ümumi buraxlışın səviyyəsi ölkəmizin iqtisadi iqtisadi fəaliyyət növləri üzrə 111946,2 mln manat, aralıq istehlakın səviyyəsi 38052,5 mln manat, əlavə dəyərin səviyyəsiysə 73893,7 mln manat olmuşdur. Bu hesabda bazar qiymətləri ilə ÜDM həcmi iqtisadiyyatın sektorlarının ümumi əlavə

edilmiş dəyəri ilə əmtəəyə və idxala verilmiş vergiləri cəmləyib, əmtəə və idxala alınmış subsidiyaları çıxmaqla müəyyənləşdirilir. Yəni:

73893,7 + 6385,5 – 187,2 = 80092,0 mln manat

2010-cu ildə sənayedə ümumi daxili məhsulun 52,6 faizi qədər, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 5,4 faiz, tikintidə 7,5 faiz, nəqliyyat və anbar təsərrüfatında 6,0 faiz, informasiya və rabitə xidmətlərində 1,9 faiz, topdan və pərakəndə ticarətdə 6,6 faiz, mehmanxana və iaşə xidmətləri sahəsində 1,0 faiz, sosial və digər xidmətlər sahəsində isə 11,9 faiz əlavə dəyər yaradılıb. Məhsul və idxala xalis vergilər isə ÜDM-in 7,1 faizini təşkil etmişdir.

2019-cu il üzrə ÜDM-in 41,4 %-i sənaye, 10,0 %-i ticarət; nəqliyat vasitələrinin təmirinin, 7,3 %-i tikintinin, 6,0 %-i anbar və nəqliyyat təsərrüfatının, 5,7 %-i kənd təsərrüfatının, balıqçılıq və meşə təsərrüfatının, 2,4 %-i ictimai iaşə və turistlərin yerləşdirilməsinin, 1,8 %-i rabitə və informasiya sahələrinin, 16,7 %-i digər sahələrin istehsal olunmuş, idxala və məhsula xalis vergilər ÜDM-in 8,7 %-ni təşkil edib.

2010- cu ilə nəzərən 2019- cu ildə əmtəə istehsalının və məhsul və xidmətə xalis vergilərin payı, eləcə də maliyyə vasitəçilərinin şərti hesablanmış xidmət haqları və xidmətlərin payı artmışdır.

Dövr ərzində diqqəti çəkən əsas meyl odur ki, ümumi daxili məhsulun formalaşmasında **qeyri-dövlət sektornun payı** artmışdır. Rəsmi statistik məlumatlarına əsasında 2010- cü il üzrə ümumi daxili məhsulun formalaşmasında özəl sektor üzrə xüsusi çəkinin 70.8%, 2015- ci il üzrə 81.7%, 2019-cu il üzrə 85% təşkil etdiyini görə bilərik.

Rəsmi statistika məlumatlarının əsasında Azərbaycanda iqtisadiyyatın müxtəlif sektorlarında yaradılmış əlavə dəyərin, eləcə də **ÜDM-un böyük hissəsi sənayenin payına düşür**. Məsələn, 2005-ci il üzrə ümumi istehsal olunmuş 12522,5 mln manat olan ümumi daxili məhsulun 49,5%-i, 2015-ci il üzrə ümumi istehsal olunmuş 54380,0 mln manat olan ümumi daxili məhsulun 32,9%-i sənayenin pauına düşür. 2019-cu il üzrəysə bu göstərici 41,4% təşkil edərək nisbətən aşağı enmişdir.

DSK-nin məlumatları onu göstərir ki, ölkəmizdə istehsal olunan ÜDM-nin həcmində **neft sektorunun xüsusi çəkisi ildən-ilə azalmaqdadır**. 2013-cü ildən başlayaraq Azərbaycanda qeyri-neft sektorlarında ümumi daxili məhsulun istehsalının həcmi ildən-ilə artmaqdadır.

Milli Hesablar Sistemi metodologiyasına əsaslanıb deyə bilərik ki, ilkin gəlrlərə i.stehsal-iqtisadi fəaliyyətdə birbaşa və dolayı iştirakdan əldə edilmiş gəlirlər daxil edilir. Buraya mənfəət, əmək haqqı, istehsala vergilər, mülkiyyətdən daxil olan gəlirlər (faiz, dividend və s.) daxildir.

2010-2019-cu illərdə işçilərə ödənilən **əmək haqqının** səviyyəsi il ərzində orta hesabla 11.6% artım göstərmişdir. 2010-cu il üzrə işçilərə ödənilən əmək haqqı ilkin qazanılmış gəlirlərin 17%-i, 2014-cü il ərzində 18.5%-ni, 2019-cu il ərzində 20,1%-ni təşkil etmişdir. Müqayisə dövrü üçün işçilərə ödənilmiş **əmək haqqının ilkin qazanılmış gəlirə nəzərən** payı artmışdır.

Əlavə 5-in məlumatlarından aydın olur ki, 2013-cü il üzrə qalan dünyadan alınan əmək haqqının məbləği 431 milyon. manat, qalan dünyaya verilmiş əmək haqqının məbləği 174.9 milyon... manat, mülkiyyətə görə alınmış gəlirlərin həcmi 715.4 milyon.. manat, mülkiyyətə görə verilmiş gəlirlərin həcmi isə 3865.2 milyon.. manat olmuşdur. 2017-ci il üzrə qeyd edilən göstəricilər müvafiq olaraq 553.9, 448.2, 2016.9, 4791.8 mln. manat müəyyən edilmişdir. Bütün yazılanlardan aydın olur ki, müqayisə üçün götürülmüş dövrdə qeyri-rezidentlərin ölkədən mülkiyyətdən gəlirlər və əmək haqqı formasında apardıqları ödənişlərin məbləği rezidentlərin gətirdiyindən yuxarı olduğu üçün ilkin gəlrlərin saldosu ÜDM-nin həcmindən az olmuşdur.

Mülkiyyətdən əldə olunmuş gəlir və əmək haqqından fərqli olaraq alınmış mövcud transfertlərin həcmi verilmiş mövcud transfertlərin həcmindən çox olduğu üçün sərancamda qalmış xalis gəlirin məbləği də artmışdır. 2013-cü il üzrə onun məbləği 53 078,6 mln. manat, 2017-ci il üzrə isə 65 183,4 mln. manat olmuşdur. 2013-cü ilə nəzərən 2017-ci il üzrə sərəncamda qalan gəlirin həcmi 18% artım göstərmişdir .

### 3.3. Əsas makroiqtisadi göstəricilərin əlaqəsinin statistik təhlili

Aparılmış təhlillərin nəticəsi onu göstərir ki, əsas makroiqtisadi göstəricilərin arasında bir-biri ilə qarşılıqlı əlaqələr mövcuddur. Məsələn, cari qiymətlər üçün ÜDM-nin hesablanması üçün işçilərə verilmiş əmək haqqı ilə istehsal və idxala verilmiş vergiləri və umumi mənfəəti toplayıb, istehsal və məhsullara verilmiş subsidiyaları çıxmaq tələb olunur.

Yəni, 2013 - cü ildə 10 077 + 4 415 +43 848-158= 58182 mln man.

2014 - 10 560,5+ 4 851,7+43 790,7 -188= 59014,1 mln man.

2015 - 10 965,0+ 5 424,2+ 38 168,7- 177= 54380 mln man.

2016 - 740,6+ 5 662,8+ 43 210,2- 188= 60425,2 mln man.

2017 - 12 685,9+ 5 539,9+ 52 291,9- 179,9= 70337,8 mln man.

Yuxarıda yazılanlardan da aydın olunduğu kimi, ÜDM-dən istehlak və idxala vergiləri (subsidiyalar), dünyanın digər ölkələrinə ödənilən mülkiyyətdən gəliri və muzdlu işçilərə verilən mükafatları çıxaraq dünyanın digər ölkələrndən alınmış uyğun maddələri cəmləməklə ÜMG-i hesablamaq mümkündür. ÜMG institusional vahidlər (rezidentlər-sektorlar) arasında bölünən ümumi ilkin gəlirlərin cəmindən ibarətdir. ÜMG-i xaricdən daxil olmuş ilkin gəlirlərin saldosuyla ümumi daxili məhsul (ÜDM) (qalığını) cəmləyərək də hesablamaq olar. Qalan dünyadan alınan əmək haqqı və mülkiyyətdən alınan gəlrləri ÜDM-nin üzərinə əlavə edərək, qalan dünyadan verilən əməyhaqqını və mülkiyyətdən verilmiş gəlirləri çıxmaq yolu ilə ilkin formalaşmış gəlrlərin ümumi qalığını hesbalaya bilərik :

2013 --cü il üzrə 58182,0 + 431- 174+ 715- 3 865= 53718mln man.

2014 --59 014+ 440- 224+1 20- 3 113= 57322mln man.

2015 -- 54 380+ 431- 359+ 1 201- 3 012= 51 64mln man.

2016 -- 60 425+ 440- 399+ 1 343- 5 015= 56794 mln man.

2017 -- 70 337+ 56 448+2 016 -4 791= 67678mln man.

2013--ÜDM-nin 92%-ni, 2014-cü il üzrə 97%-ni, 2015-ci il üzrə 95%-ni, 2016-cı il üzrə 93%-ni, 2017-ci il üzrə isə 96%-ni ÜMG təşkil etmişdir.

Ümumi milli gəlirdən əsas fondların istehlakın çıxaraq xalis milli gəlirin göstəricisini müəyyən etmək olar:

**2013**--53718- 2 617=51100 mln man.

**2014**--57322- 3 466= 53856 mln man.

**2015**--51 644 - 3 643= 48001 mln man.

**2016**--56794- 3 997= 52796 mln man.

**2017**--67678 - 4 400= 63278 mln man.

İlkin gəlirlərin ümumi qalığından və yaxud ümumi milli gəlirdən alınmış cari transferləri çıxaraq, verilmiş cari transferləri topladıqda, sərəncamda qalan ümumi gəlirin göstəricisin müəyyən etmək olar:

**2013** - cü il üzrə 55 288+ 1 695- 1 287 = 55 696 milyon man.

**2014** - cü il üzrə 57 322+ 1 819 -1 275=57 86 mln man.

**2015** - ci il üzrə 52 641+1 657 - 1 031 = 53 266mln man.

**2016** - cı il üzrə 56 794+ 1 563- 899= 57 457mln man.

**2017** - ci il üzrə 67 678+ 2 601-695=69 583mln man.

Eləcə də sərəncamda qalan ümumi gəlirin göstəricisindən əsas fondların istehlakın çıxmaqla sərəncamda qalan xalis gəlir göstəricisin müəyyənləşdirmək mümkündür:

**2013** - cü il üzrə 55 696 - 2 617 = 53 078 mln man.

**2014** - cü il üzrə 57 866 - 3 466 = 54 400 mln man.

**2015** - ci il üzrə 53 266 - 3 64 = 49 623 mln man.

**2016** - cı il üzrə 57 457 - 3 997= 53 460mln man

**2017** - ci il üzrə 69 583- 4 400= 65 183mln man

Nəticə etibarı ilə, ÜDM-in yeni yaradılmış dəyərin yaxud, məhsulun və xidmətlərin son axınının yekunun xarakterizə edirsə, ÜMG ümumi daxili məhsulun yaradılmasında iştirak etməsi nəticəsində ölkənin rezidentləri tərəfindən əldə olunan ilkin gəlirlərin axının xarakterizə edir. MHS-də həmin gəlirlərə mülkiyyətdən əldə edilən gəlirlər, mənfəət, əmək haqqı, istehsala və idxala görə verilən vergilər (subsidiyaları çıxmaqla) daxildir.

Ölkənin iqtisadi dövriyyəsində gəlirlər vacib rol oynayırlar. Bu baxımdan milli hesablar sistemində gəlirlərin axını bir sıra hesablarda qeyd edilir. Məlumdur ki, gəlirlərin vacib multiplikator səmərəsi var.

Milli Hesablar Sistemində ilkin gəlirlərlə təkrar bölgü əməliyyatları (transfertlər) arasındakı fərq aydın surətdə verilir.

Ölkə səviyyəsində yaradılmış gəlirlərin ilkin bölgüsündə baş vermiş dəyişikliklər "Gəlrlərin yaranması hesabında" əks olunur. Bildiyimiz kimi, gəlirlərin yaranmasında iştirak edən istehsal amilləri bu və ya başqa formada müvafiq surətdə öz payların alır. Rəsmi statistika məlumatlarına əsasən gəlirlərin ilkin bölgüsün xarakterizə edən göstəricilər dinamikasında ciddi meyllər müşahidə olunur

**Cədvəl 9: Gəlirlərin ilkin bölüşdürülməsi hesabı (milyon manatla)**

| Göstəricilər | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|
| Ehtiyatlar | | | | |
| Ümumi mənfəət (qarışıq gəlirlər) | 32576,4 | 38168,7 | 43210,2 | 52291,9 |
| Əmək ödənişləri | 7118,4 | 11396,7 | 12180,6 | 13249,8 |
| İstehsala və idxala vergilər (+) | 3198,2 | 5424,2 | 5662,8 | 5539,9 |
| Subsidiyalar | 130 | 177,9 | 188,4 | 179,9 |
| Mülkiyyətdən alınmış gəlirlər | 18251,5 | 16011,9 | 19635,1 | 17936,2 |
| İstifadə | | | | |
| Əmək ödənişləri | 298 | 431,7 | | 563,9 |
| İstehsala və idxala vergilər (+) | | | | |
| Subsidiyalar | | | | |
| Mülkiyyətdən verilmış gəlirlər | 18251,5 | 16011,9 | 19635,1 | 22728 |
| İlkin gəlirlərin ümumi qalığı/ Ümumi milli gəlir | 39922,2 | 52641,2 | 56794 | 67678,6 |

**Mənbə:** Azərbaycanın milli hesabları, statistik məcmuə, ARDSK, Bakı, 2019 (www.stat.gov.az) statistik məcmuələr ( https://www.stat.gov.az/search/?q=G%C9%99lirl%)

İlkin gəlirlər institusional, həmin vahidlərin aktivlərinin istehsal prosesi zamanı iştirak etməsi nəticəsində daxil olmuş gəlirlərdir. İlkin gəlirlərin müəyyən olunması ölkənin milli gəlirinin müəyyən olunması ilə əlaqədardır.

**Transfertlər** isə elə bir iqtisadi əməliyyatlardır ki, onun nəticəsi olaraq hər hansısa bir institusional vahid əmtələri, xidmətləri və aktivləri digərinə verir, lakin əvəzində hər hansısa qarşılıq olacaq bir ekvivalent almır. Transfertlərə əmlaka vergilər və gəlirlər, dövlət büdcəsindən verilən sosial yardımlar, sosial sığorta ödəmələri, və s. daxildir. Transfertlər pul, natural, cari və kapital formasında olur.

Aydındır ki, iqtisadi dövriyyə üçün **gəlirlər** əhəmiyyətli rol oynamaqdadır. Belə ki, iqtisadi səviyyədə gəlirlərin artımı institusional vahidlərin (müəssisələrin, ev təsərrüfatı ,təşkilatların və s.), eyni zamanda bütövlükdə iqtisadiyyat baxımından dinamikliyi və davamlı inkişaf imkanların artırır.

2005-2012-ci illər üzrə digər tədqiq edilən göstəricilər kimi gəlir göstəricisnin dinamikasında da həmçinin ciddi dəyişmələr olmuşdur (Cədvəl 10).

**Cədvəl 10: Gəlirlərin yaranması hesabı (milyon manatla)**

| Göstəricilər | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|
| Ehtiyatlar | | | | |
| Ümumi əlavə dəyər (əsas qiymətlərlə) | 39588,5 | 49521 | 55503,7 | 65333,4 |
| İstifadə | | | | |
| Əmək ödənişləri | 6820,4 | 10965 | 11740,6 | 12685,9 |
| İstehsala digər vergilər | 191,7 | 387,3 | 552,9 | 355,6 |
| İstehsala digər subsidiyalar (-) | | | | |
| Ümumi mənfəət (qarışıq gəlirlər) | 32576,4 | 38168,7 | 43210,2 | 52291,9 |
| Əsas fondların istehlakı | 2299,1 | 3643,3 | 3997,5 | 4400,4 |
| Xalis mənfəət (xalis qarışıq gəlirlər) | 30277,3 | 34525,4 | 39212,7 | 47891,5 |

**Mənbə:** Azərbaycanın milli hesabları, statistik məcmuə, ARDSK, Bakı, 2019 (www.stat.gov.az) Milli hesablar sistemi və tədiyə balansı (https://www.stat.gov.az/source/system_nat_accounts/)

Yəni ki, 2010-cu il üzrə gəlirlərin yaranması hesabının ehtiyatlar hissəsində əksini tapan 39588,5 mln.manatlıq ümumi əlavə dəyərin 6820,4 mln.manatı əməyin ödənilməsi, 191,7 mln. manatını istehsala vergilər, 32576,4 mln. manatını ümumi mənfəət, 2299,1 mln.manatını isə əsas fondların istehlakı təşkil etmişdir.

2017-ci il üzrə bu göstəricilər uyğun olaraq 65333,4 mln. manat, 12685,9 mln.manat, 355,6 mln.manat, 52291,9 mln. manat, 4400,4 mln. manat həcmində olmuşdur. 2010-cu ilə nəzərən 2017-ci il üzrə əməyin ödənişinə yönəldilmiş məbləğ 1.8 dəfə, idxala və istehsalata vergilər 1.8 dəfə, ümumi mənfəət 1.6 dəfə, əsas fonların istehlakı həcmi 2 dəfə artmışdır.

2010-2017-ci illərdə **Ümumi Əlavə Dəyərin dinamikasında** müşahidə olunan dəyişiklik 2 saylı xətti qrafikdən aşkar olaraq görünür

2010-cu il üzrə **əməyin ödənilməsinə yönələn məbləğin** Ümumi Əlavə Dəyərdə xüsusi çəkisi 17%, 2015-ci il üzrə 22%, 2016-ci il üzrə 21%, 2017-ci il üzrə

isə  19% təşkil etmişdir. Beləlikə, hesablama nəticələrindən aydın olur ki, Ümumi Əlavə Dəyərin əməyin ödənilməsinə yönələn hissəsi 2015-ci ildən sonra azalmışdır.

Təhlil olunan dövrdə **idxala və istehsala vergilərin səviyyəsi** dinamikasında da artım müşahidə edilmişdir. Belə ki, 2010-cu il üzrə istehsala digər vergilərin həcmi 191,7 mln. manat, 2015-ci il üzrə 387,3 mln. manat, 2016-cı il üzrə 552,9 mln. manat, 2017-ci il üzrə isə 355,6 mln. manat təşkil etmişdir. 2010-cu il üzrə istehsala digər vergilər Ümumi Əlavə Dəyərin 2.8%-ə, 2015-cı il üzrə 3.5%-ə, 2016-cı il üzrə 4.7%-ə, 2017-ci il üzrə 2.8%-ə bərabər olmuşdur.

Milli Hesablar Sisteminin metodikası əsasında ilkin gəlirlərin bölgüsündə yaranan gəlirlərin həcmin hesablamaq məqsədilə uyğun göstəricilərə mülkiyyətdən alınan və verilən gəlrlərin məbləğinin saldosu əlavə edilməlidir. 2010-cu il üzrə ilkin toplanmış gəlirlərin cəmi qalığı 399.22.2 mln.manat, 2015-ci il üzrə 52641,2 mln.manat, 2016-cı ildə 56794 mln.manat, 2017-ci il üzrə isə 67678,6 mln. manat müəyyən edilmişdir. 2010-cu ilə nəzərən 2017-ci il üzrə bu göstəricinin səviyyəsi təxminən 1.6 dəfə artmışdır.

2010-cu ildə iqtisadiyyatda **ümumi mənfəətin həcmi** 32576,4 mln. manat, 2015-ci ildə 38168,7 mln. manat, 2016-cı ildə 43210,2 mln. manat, 2017-ci ildə 52291,9 mln. manat olmuşdur. Müqayisə olunan dövrdə ümumi mənfətin həcmi müvafiq surətdə 1.6 dəfə artmışdır. Qeyd edilən dövrdə müşahidə olunan meyllərdən biri də mülkiyyətdən verilmiş gəlirlərin alınmış gəlirlərə bərabər olmasıdır. Bu isə son nəticədə ilkin gəlirlərinin qalığına təsirini göstərmişdir. 2017-ci  isə mülkiyyətdən verilmiş gəlirlərin məbləğu 17936,2 mln. manat, alınmış gəlirlərin məbləği 22728 mln. manat təşkil etmişdir.

Müxtəlif iqtisadi əməliyyatların nəticəsində, xüsusilə transfert əməliyyatlarının nəticəsində **ilkin gəlirlərin saldosu** dəyişir. Cari sosial-iqtisadi siyasətə uyğun olaraq gəlirlərin təkrar bölgüsü olur ki, bunları da **ilkin gəlirlərin təkrar bölgüsü** hesabı özündə əks etdirir. Bu hesabda sərənamda qalan gəlirlərin necə formalaşması prosesi təsvir olunur.

Hər il üzrə alınmış və verilmiş cari transfertlərin saldosun ilkin gəlirlərin bölgüsündən yaranan məbləğin üzərinə əlavə etməklə sərəncamda qalan ümumi milli gəlirin göstəricisi alınır.

2010-cu ildə alınmış **cari transferlərin həcmi** 8362,9 mln. manat, verilmiş cari transferlərin məbləği isə 8362,9 mln. manat təşkil etmişdir. 2017-ci ildə bu göstəricilər müvafiq olaraq 13797,4 və 13797,3 mln.manat təşkil etdiyini göstərir. Bu əməliyyatların nəticəsində 2010-cı ildə sərəncamda qalan ümumi gəlirin məbləği 40811,1 mln. manat, 2017-ci ildə 69583,8 mln.manat təşkil etmişdir. 2010-cu ilə nisbətən 2017-ci ildə sərəncamda qalan ümumi milli gəlir 1.7 dəfə artmışdır.

Aydın olur ki, alınmış cari transferlərin miqdarının verilmiş cari transferlərin həcmindən çox olması sərəncamda qalan ümumi milli gəlirə müsbət təsirini göstərmişdir. Sərəncamda qalan gəlirlərin istifadəsi isə istehlaka və qənaətə yönəldilir. Bilirik ki, makrosəviyyədə iqtisadi əməliyyatlara hər iki parametrin mühüm təsiri vardır. Buna görə də mühüm makroiqtisadi göstəricilər olaraq onların həcmi və dinamikasının, digər iqtisadi göstəricilərə olan təsirinin öyrənilməsi vacib əhəmiyyət kəsb edir. Bu əməliyyatlar Milli Hesablar Sisteminin mühüm hesablarından sayılan "**sərəncamda qalan gəlirlərdən istifadə**" hesabında əksini tapır.

Statistik göstəricilərdən aydın olur ki, 2010-cu ildə 40811,1 mln.manat sərəncamda qalan ümumi milli gəlirin 21336,1 mln.manatın son istehlak xərcləri, 19475 mln. manatın isə qənaət təşkil etmişdir. 2017-ci ildə bu göstəricilər müvafiq surətdə 48482,2 mln.manat və 21101,6 mln.manat təşkil etmişdir. 2010-cu ildə son istehlak xərcləri sərəncamda qalan ümumi milli gəlirin 52%-ni, 2017-ci ildə isə 70%-ni təşkil etmişdir. Bu illər ərzində qənaətin xüsusi çəkisi müvafiq surətdə 47.7% və 30% təşkil etmişdir.

Sektorlar üzrə iqtisadiyyatın təsnif edilməsi xərclərin və gəlirlərin, maliyyə aktivlərinin və passivlərin axınını öyrənmək üçün həyata keçirilir. Bu qruplaşadırmanın təsnifat vahidi olaraq institusional vahid götürülür. O, mühasibat hesatı üzrə tam dəsti reallaşdıran və hüquqi şəxs sayılan, yəni, sərbəst formada qərar qəbul edə bilən və öz maliyyə və maddi ehtiyatları üzərində müstəqil olaraq

sərəncam verən təsərrüfat subyektidir. Sektor iqtisadi proseslərdə yerinə yetirdiyi funksiyaların və xərclərin maliyyələşdirilməsi üsulları baxımından eyni olan institusional vahidlərin qrupudur. İqtisadi davranış tipinə əsasən institusional vahidlər “maliyyə müəssisələri”, “ev təsərrüfatları” ,“qeyri-maliyyə müəssisələri”, “ev təsərrüfatlarına xidmət göstərən ictimai təşkilatlar” , “dövlət idarələri”, və “xarici iqtisadi əlaqələr” sektorlarında birləşdirilir. Respublikamızın Milli Hesablar Sistemində iqtisadiyyat sektorlarına əsasən bəzi hesablar qurulur. Bunlar sektorlar üzrə institusional vahidlərin apardığı əməliyyatların nəticələrini ümumiləşdirilmiş formada özündə göstərir.

Sektorlar üzrə qurulan hesabların göstəriciləri əsasında ölkənin iqtisadi potensialı və gücünün artırılmasında **hər bir sektorun yerini və rolunu** qiymətləndirmək olar.

Əlavə 5-ə əsasən görə bilərik ki, 2017-ci il üzrə ölkədə65.3 mlrd. manatlıq əmtəə və xidmətlər buraxılışının 37.6 m.lrd. manatı (57%) qeyri-maliyyə müəssisələri idarələrinin, 21.6 mlrd. manatı (33%) isə ev təsərrüfatlarnın üzərinə düşmüşdür. Bununla aydın görünür ki, xidmətlərin və əmtələrin buraxılışının 90%-i bu iki sektorlae üzrə paylanır. Onların konteksində aralıq istehlak və ümumi əlavə dəyərin də əsas hissəsi məhz bu sektorlar hesabına formalaşmışdır.

Bu cür meyl özünü ümumi mənfəətdə də əks etdirir. Qeyri-maliyyə müəssisələrində 2017-ci il üzrə ilkin gəlirlərin umumi qalığının 22.3%-i, 33.7%-i dövlət idarəetmə strukturlarında, ev təsərrüfatlarında isə 42.1%-i formalaşıb. Həmçinin sərəncamda qalan gəlirin və qənaətin formalaşmasında sadalanan üç sektorun əhəmiyyəti böyük olmuşdur. İqtisadiyyatın əhəmiyyətli hissələrindən olan qalan dünya sektoru üzrə əmək ödənişləri, ilkin gəlirlərinin ümumi qalığı və sərəncamda qalan ümumi gəlirin formalası üçün əhəmiyyətli dərəcədə təsiri vardır.

Araşdırmalar göstərir ki, iqtisadi sektorlar üzrə formalaşan hesablarda statistik baxımdan istehsal hesabını öyrənmək digər sektorların iqtisadiyyatın inkişafı üçün səciyyəvi olan əsas makroiqtisadi göstəricilərin formalaşmasında yerini və rolunu qiymətləndirməyə imkanlar yaradır.

Bu səbəbdən statistik təhlilin istiqamətləri müəyyənləşdirilərkən onun nəzərə alınması vacibdir. Eyni zamanda da milli hesablar sisteminin təhlil imkanlarının yüksək olması zəruri edir ki, iqtisadiyyatda sektorlara əsasən başqa hesablar da qurulmuş olsun və statistik olaraq təhlil olunsun.

Ölkəmizdə tədiyə balansını qurmaq üçün beynəlxalq metodologiyaya əsaslanırlar və respublikanın dünya təsərrüfatilə iqtisadi münasibətlərinin cari durumu və perspektiv inkişafı istiqamətləri müxtəlif aspektlərdən qiymətləndirilir.

Milli Hesablar Sistemində "**Qalan dünya ilə iqtisadi əməliyyatlar**" hesabının göstəricilərinə görə əlavə 6-da 2017-ci il üzrə əmtəə və xidmətlər üçün xarici ticarət balansı komponentlərindən hesab olunan əmtələrin və xidmətlərin ixracatı 34 147,5 milyon manat, idxalı isə 29 439,5 milyon manat olmuşdur. Bu əməliyyatlar nəticəsində xarici ticarət balansı saldosu 4 708,0 milyon manat təşkil etmişdir. Həmin il müddətində xaricidən alınan və xaricə verilən ilk gəlirlərin və cari transfer əməliyyatlarının nəticəsində cari xarici balans saldosu 395.4,0 milyon təşkil etmişdir. Qeyd olunduğu kimi respublikanın dünya təsərrüfatı ilə münasibətlərini ümumiləşdirilmiş formada tədiyə balansında özünü göstərir. Rəsmi statistika göstəriciləri ölkədə tədiyə balansının maddələrində davamlı olaraq müsbət meyllərin yarandığını göstərir. Cədvəl məlumatlarından aydın olur ki, təhlil olunan dövrdə tədiyyə balansının real əməliyyatlarını özündə ifadə edən cari əməliyyatlar hesabının nəticələri müsbət olmuşdur. Əmtəə və xidmət əməliyyatları üzrə davamlı surətdə müsbət saldonun saxlanılması əsasən məhsul ixracının yüksək olmasının hesabına təmin edilmişdir.

Cədvəlin məlumatlarından aydın görünür ki, bu dövrdə xidmətlərlə və gəlirlərlə bağlı əməliyyatların balansına mənfi saldo uyğun olmuşdur.

2010-2017-ci illərdə tədiyə balansının kapital və maliyyə hərəkəti hesabının maddələri dinamikasında və quruluşunda da vacib dəyişmələr baş vermişdir. Araşdırılan dövrdə ölkə iqtisadiyyatına birbaşa investisiyaların və portfel investisiyalarının həcmi davamlı surətdə artmışdır.

2010-cu il üzrə ölkənin iqtisadiyyatına yönəldilmiş birbaşa investisiyaların həcmi 14.1 mlrd.manat təşkil etmişdirsə, artıq 2019-cu il üzrə bu məbləğ 1.7 dəfə

artaraq 25 mlrd. dollara çatmışdır. Bu dövrdə xarici investisiya həcmi müvafiq surətdə 66.1 mln. manat və 12.1 mlrd. manat təşkil etmişdir.

**Cədvəl 13: İqtisadiyyata yönəldilən investisiyalar**

| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla)** | | | | | | |
| mlyn.manat | 14118 | 20057 | 22706 | 24462 | 25877 | 24986 |
| mlyn.dollar | 17591 | 19547 | 14228 | 14213 | 15221 | 14698 |
| **Xarici investisiya:** | | | | | | |
| mlyn.manat | 6619 | 10998 | 16216 | 15697 | 14002 | 12119 |
| mlyn.dollar | 8247 | 10719 | 10161 | 9120 | 8236 | 7129 |

**Mənbə**: Azərbaycan rəqəmlərdə, statistik məcmuə, ARDSK, Bakı ,2019 (https://www.stat.gov.az/) Maliyyə və bank (https://www.stat.gov.az/source/finance/)

Beləliklə, Azərbaycanın dünya təsərrüfatilə iqtisadi münasibətlərini özündə əks etdirən tədiyyə balansının təhlil olunması son dövrlər ölkənin sosial və iqtisadi həyatı üçün keçirilən genişmiqyaslı dəyişikliklərin həm orta həm də uznmüddətli perspektiv əsasında davamlı iqtisadi inkişaf üçün mökəm bazasının yaradıldığını göstərir. Bununla bərabər reallaşdırılan böyük miqyasa malik iqtisadi layihələr ölkəmizin iqtisadiyyatına həm birbaşa həm də portfel investisiyaların cəlb edilməsinə şərait yaratmaqla ölkənin aktivlərinin həcminin və keyfiyyətinin daha da yüksəldilməsinə, eləcə də ehtiyat aktivlərinin artımına gətirib çıxarmışdır.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Respublikada milli hesablar sisteminin tətbiq edilməsi, qlobal miqyasda inteqrasiya proseslərinin miqyasının daha da böyüməsi və beynəlxalq münasibətlərin artımı statistik məlumatların beynəlxalq müqayisəliliyinin əhəmiyyətini daha da artmışdır.

Azərbaycan statistikasında Milli Hesablar Sisteminin göstərcilərinin əsasında ölkənin iqtisadi inkişaf meylləri statistik tədqiq olunmuş, həm nəzəri həm də praktiki yöndən əhəmiyyətli bir sıra nəticələr ortaya çıxmışdır.

1. Hazırki MHS makrosəviyədə iqtisadiyyatda gedən proseslərin xarakteristikasının kompleks surətdə təhlil edilməsinin balans metodudur. O, fərqli təsərrüfat səviyyələrində uçotun və statistikanın aparılması üçün vahid proinsiplərə əsaslanmaqla makroiqtisadi informasiyaların müxtəlif bölmələrin birlikdə istifadə olunmasının və inteqrasiyasının nəzəri əsasını təmin edir. Geniş əhatəlilik, qarşılıqlı olaraq balanslaşdırılmış və inteqrasiya olunmuş xarakterə malik olan bu sistem iqtisadiyyatın inkişafı səviyyəsindən və onun sahə strukturundan asılı olmadan sosial-iqtisadi siyasətin hazırlanmasında və əsaslı qərarların qəbul olunması üçün mühüm rol oynayır.

2. İqtisadi inkişafı səciyyələndirən göstəricilər sistemi istehsal prosesinin bütün səviyyələrində fəaliyyətin nəticələrinə özündə əks etdirir. Fəaliyyətin son nəticəsini qiymətləndirmək məsələsi müxtəlif müəssisələr və təsərrüfat subyektləri, eləcə də sahələr və ümumi iqtisadiyyat səviyyəsində aparılır. Bütövlükdə iqtisadiyyatın fəaliyyətinin nəticələrini üçün xarakterizə edici göstəriciləri makroiqtisadi göstəricilər adlandırılırlar. Bu göstəricilər Milli Hesablar Sisteminin əsasında müəyyən edilir və iqtisadi fəaliyyətin fərqli mərhələlərin - malların və xidmətlərin istehsalını, gəlirlərin yaradılmasını, bölgüsü və təkrar bölgüsünü, onların son istifadəsini səciyyələndirir.

3. Makroiqtisadi proseslərin statistik informasiya bazası olaraq MHS məlumatlarının təhlilinin istiqamətlərinə - iqtisadi artımın tempinin müəyyən olunmasını, eləcə də onun xarakterini müəyyənləşdirən amillərin rolunun aşkar olunmasını, iqtisadiyyatın struktur quruluşunun və onun müəyyən zaman kəsiyində

dəyişməsinin, eləcə də onun amillərinin müəyyən olunmasını, son istehlakla yığım arasında nisbətin müəyyənləşdirilməsini, eləcə də investisiya dinamikasına təsir göstərən amillərin statistik baxımdan qiymətləndirilməsin, ölkənin iqtisadiyyatına müxtəlif növ makroiqtisadi dəyişənlərin effektinin statistik baxımdan təhlil olunmasını, sosial-iqtisadi sahədə aparılan siyasətin səmərəliliyi və nəticələrinin statistik olaraq qiymətləndirilməsini və s. aid edilir.

4.Sosial-iqtisadi inkişafda iqtisadi artım əsas faktor olaraq özünü göstərir. Milli hesablar sistemində ən vacib göstərici ümumi daxili məhsul hesab edilir. O, bütün sahələr üzrə ölkənin iqtisadiyyatında istehsal edilmiş əmtəələrin və göstərilmiş xidmətlərin bazar qiymətləri ilə illik dəyərini özündə əks etdirir. Onun vasitəsilə yığım ,son istehlak və xalis ixrac kimi əsas makroiqtsadi göstəricilər, həmçinin ölkə iqtisadiyyatın inkişafının səviyyəsini və imkanları müəyyən edilir.

5. 2010- 2019- cu illərdə respublikanın sosial - iqtisadi vəziyyətin gösstərən ÜDM-un dinamikasında ciddi dəyişimələr baş vermişdir. Yəni, 2010- cu il üzrə ölkəmizdə ÜDM-n səviyyəsi 42.5 mlrd. manat idisə, 2015 – ci il üzrə 54.4 mlrd. manat, 2019-cu il üzrə 81,6 mlrd.manat təşkil etmişdir. 2010-cu ilə nəzərən 2015-ci il üzrə ÜDM-un səviyyəsi mütləq ifadə ilə desək 11.9mlrd. manat, yəni 28%, 2019-cu ildə isə təqribi olaraq 2 dəfə qalxmışdır. Eyni zamanda 2015-2016-cı illər üzrə ÜDM dinamikası 3,1%-lik azalma ilə müşahidə olunmuşdur..

6. Xüsusilə məşğulluq sferası üçün ölkəmizin sosial-iqtisadi həyatında görülən tədbirlər əhalinin iqtisadi fəallığının artımına imkan yaratmışdır. Yəni ki, 2010-cu ilə nəzərən 2019-cu il üzrə iqtisadiyyatda məşğulluğn sayı təqribən 14%, 2018-ci ilə nəzərən isə 1,2% artmışdır. Ölkədə əhali gəlirlərinin artması nəticəsində iqtisadi artımın mənbəyi olaraq yığımın imkanları genişlənmişdir. Belə ki, əgər 2014-cü ildə əhali gəlirləri 39,4 mlrd. manat idisə, 2017-ci ildə bu 49,1 mlrd. manata, 2018-cı ildə isə 53,6 mlrd.manata çatmışdır. Yəni müqayisə olunan dövrlərdə əhali gəlirləri təqribən 1,3 dəfə qədər artmışdır

7. Geniş analitik təhlil imkanlarına malik olan MHS-nin göstəricilərinin əsasında ölkənin iqtisadiyyatının müasir vəziyyətinin təhlil edilməsi ötən dövrdə iqtisadi inkişafda davamlı meyllərin formalaşdığın göstərir. Başqa mənada, ölkənin iqtisadi

inkişafı üçün xarakterizə edici olan əsas makroiqtisadi göstəricilərin, həmçinin, məhsulların və xidmətlərin ümumi buraxılışı, ümumi mənfəət, ümumi əlavə dəyərin ,ümummilli gəlirin, və s. həcmindəolan müsbət dinamikası həm orta həm də uzunmüddətli perspektivə hədəflənən  prioritetlərin həll olunması üçün dayanıqlı iqtisadi və maliyyə bazasının, davamlı iqtisadi artımın keyfiyyət amillərinin formalaşdırıldığını, inkişaf potensialının artdığını göstərir.

8. Təhlilə əsasən deyə bilərik  ki, respublikamızın makroiqtisadi yöndən inkişafı üçün davamlılğının təmin olunmasının möhkəm təməli qoyulmuş və bu istiqamə üzrə çoxlu sayda imkanlar əldə edilmişdir. Bu imkanlara əsasən qeyri-neft sektoruda investisiya həcminin artırılmasın, və iqtisadi inkişafda keyfiyyət amillərinin rolunun gücləndirilməsin, əməyin keyfiyyəti və məhsuldarlığının yaxşılaşdırılmasın, kiçik və orta biznesn inkişafın aid etmək olar. Qeyd olunan ehtiyatlardan istifadə olunması ölkənin iqtisadiyyatının istehsal, texnoloji və innovasiya xarakterin gücləndirməklə ÜDM dinamikasında davamlı artım meylin təmin etməyə imkanlar yarada bilər.

9. Həm ümumi baxımdan, həm də iqtisadiyyatın fərqli sektorları üzrə tərtib olunan “kapitalla bağlı əməliyyatlar” hesabındakı göstəricilər maliyyə axınlarının respublikanın iqtisadi vəziyyətinə ciddi təsir göstərdiyin subut yetirir. Xalis kreditləşmənin miqyası və xüsusi çəkisinin azalması ölkənin iqtisadiyyatına maliyyə vəsaitlərinin axının gücləndirir. Bu isə iqtisadi fəaliyyətin səmərəli və perspektivli növlərin maliyyələşdirilməsi imkanların genişləndirməklə, beynəlxalq səviyyədə rəqabət qabliyyətinin artırılmasına müsbət təsirini göstərir. Müasir dövrdə MHS-də maliyyə göstəricilərinin işlənərək hazırlanması baxımından respublikanın statsitika təcrübəsinə əsasən ilkin məlumatların əldə edilməsi ilə əlaqəli pkartiki xarakterli bəzi problemlər var ki, bu iqtisadi təhlildə maliyyə göstəricilərinnin tam olaraq istifadə edilməsinə imkan yaratmır.

10. Respublikanın iqtisadi inkişafının səmərəliliyin səciyyələndirən bəzi makroiqtisadi göstəricilərin təhlili iqtisadi inkişafda müsbət meyli formalaşdıran əsas faktorların rolunun güclü olduğun və potensial imkanların mövcudluğun göstərir. Onu da nəzərə almaq lazımdır ki, ölkə iqtisadiyyatının enerji resursları baxımından dünya bazarı konyukturasından asılılığın aradan qaldırılması məqsədilə

insan kapitalına ,innovasiya layihələrinə, investisiyaların yönəldilməsinə diqqətin artırılması əhəmiyyətlidir ki, bu isə iqtisadi inkişafın səmərəliliyinin və rəqabət qabliyyətinin yüksəldilməsinə müsbət təsirini göstərə bilir. Bununla bərabər ölkə iqtisadi siyasətnin əsas vəzifəsi iqtisadi əlaqələrin qloballaşdığı bir şəraitdə rəqbət qabliyyətli olmaqdır. Dünya təcrübəsində innovativ fəaliyyətin səviyyəsini səciyyələndirmək üçün bir çox göstəricidən (insan kapitalının ölçülməsi, biliyi, elmi-texniki tərəqqi göstəriciləri, fond bazarı göstəriciləri və s.) istifadə olunur. Bu cəhətdən ölkədə iqtisadiyyatın inkişafının səmərəliliyinin statistik təhlilində innovasiya məsələsinə xüsusi diqqət yetirilməsi vacibdir.

Beləliklə, təhlil göstərir ki, MHS-nin təhlil imkanlarının yüksək olmasını zəruri edir ki, iqtisadiyyatın müxtəlif sektorları üzrə digər başqa hesablar da qurulsun və statistk təhlili aparılsın.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində


1. Aslanov A.M., Aslanova T.A., Əsas iqtisadi – statistik göstəricilərin izahlı lügəti, Dərs vəsaiti, Bakı 2004
2. Aslanov A.M., Statistikanın ümumi nəzəriyyəsi və sosial – iqtisadi statistika, Bakı 2005
3. Azərbaycan rəqəmlərdə, statistik məcmuə, ARDSK, Bakı ,2019, 266 s.
4. Azərbaycanın milli hesabları, statistik məcmuə, ARDSK, Bakı, 2019, 154 s.
5. Cabbarova A.İ, Dünyamalıyeva V.R., Milli Hesablar Sistemi. Dərs vəs., Bakı 2014, 356 s.
6. Əliyev Ə.İ., Statistika. Dərs vəsaiti, Bakı, 2013
7. Həsənli Y.,Statistika praktiki nümunələrlə, Dərslik, Bakı 2014
8. Həsənov İ.M., “Sosial-iqtisadi statistika” metodik göstəriş Bakı 2006.
9. Hüseynli İ.Q., Əliyev Ə.İ., “Statistika”. Tədris – metodiki vəsait ,Bakı 2014
10. İqtisadi vəziyyətin proqnozlaşdırılması, iqtisadi siyasətin işlənməsi və monitorinqi üçün statistikadan istifadə etməklə iqtisadi modellərin hazırlanması və təkmilləşdirilməsi, ARDSK, Bakı, 2013, 212 s.
11. Məmmədov R.Ş., “Milli Hesablar Sistemi., Dərs vəsaiti, Bakı 1997
12. Milli hesablar və maliyyə statistikası üzrə metodoloji izahat, ARDSK, Bakı, 2013, 406 s.
13. Sosial-iqtisadi statistika, (O.Məmmədlinin redaktorlugu ilə) Dərs vəsaiti.Gəncə, 2011.
14. Yaqubov S., Məmmədov A., Sosial-iqtisadi statistika. Bakı,2011
15. Yaqubov S.M., Əliyev Ə.İ., Sosial-iqtisadi statistika. Dərs vəsaiti. Bakı 2006, 476 s.

**Rus dilində**


1. Баскина.А.С.,Боткина.О.И., Ишмановой.М.С.,Основы экономической теории. Под ред.., Изд. дом "Удмуртский университет", Ижевск, 2000.
2. Башкатов Б.И, Назарова О.В. Система национальных счетов: теоретические основы и задачи. /М.: Московский международный институт эконометрики, информатики, финансов и права, 2015, 151 с.
3. Деревяго И. П. Основы устойчивого экономического роста / И. П. Деревяго. –
4. Есипова Э.Ю. Система националнькх счетов: краткий курс, финансы и статистика, 2010
5. Иванов Ю.Н. История возникновения и развития системы национальных счетов Вопросы статистики. № 8. , 2012. С. 79-83.
6. Иванова П. Ю.Н..,Экономическая статистика. Учебник /– М,ИНФРА- М, 2012
7. Иванова.Ю.Н., Основы национального счетоводства / Под ред. Учеб., М,2005
8. Клименко Е. Н. Макроэкономика: учебное пособие для самостоятельного изучения дисциплины для иностранных студентов всех направлений подготовки / Е. Н. Клименко, О. Н. Крюкова, М. С. Бриль. – Х. : Изд. ХНЭУ им. С. Кузнеца, 2015. – 220 с.
9. Курашева Т. Основы международной социально- экономической статистики, М, 2011 Минск: Дикта, 2015.
10. Мэнкью Н. Г. Принципы макроэкономики : пособие для вузов / Н. Г. Мэнкью. – 4-е изд. – СПб.: Изд. "Питер" , 2010. - 576 с.
11. Образцова О. Ю., Копейкина О. Т., Система национальных счетов., М, 2008
12. Плотницкий М.И. Курс экономической теории. - Мн.: Мисанта, 2014.
13. Рябова М.А., Анализ финансовой отчетности : учебно-практическое пособие / М. А. Рябова. – Ульяновск : УлГТУ, 2011
14. Тарасевич Л.С., Гребенников П.И., Леусский А.И. Макроэкономика: учебник. - 6-е изд., испр. и доп. - М.: Высшее образование, 2009
15. Шевчук В.А. Макроэкономика: конспект лекций. - М.: Высшее образование, 2013.

## İnternet resursları

1. http://www.worldbank.org
2. www.stat.gov.az
3. www.vergiler.az

# ƏLAVƏLƏR

**Əlavə 1.**

**Cədvəl 4: Ümumi daxili məhsul - manat, dollar və avro ilə**

| | Cəmi | | | Adambaşına | | |
|---|---|---|---|---|---|---|
| | **milyon manatla** | **milyon dollarla** | **milyon avro ilə** | **manatla** | **dollarla** | **avro ilə** |
| **2000** | 4718,1 | 5272,8 | 5687,2 | 593,2 | 662,9 | 715,1 |
| **2005** | 12522,5 | 13238,7 | 10603,3 | 1494,3 | 1579,8 | 1265,3 |
| **2010** | 42465,0 | 52909,3 | 39952,0 | 4753,0 | 5922,0 | 4471,7 |
| **2015** | 54380,0 | 52996,8 | 47785,6 | 5706,6 | 5561,5 | 5014,6 |
| **2016** | 60425,2 | 37862,8 | 34217,8 | 6269,6 | 3928,6 | 3550,4 |
| **2017** | 70337,8 | 40867,9 | 36213,7 | 7226,0 | 4198,5 | 3720,3 |
| **2018** | 80092,0 | 47112,9 | 39858,7 | 8156,2 | 4797,8 | 4059,0 |
| **2019** | 81681,0 | 48047,6 | 42906,4 | 8247,0 | 4851,2 | 4332,1 |

**Mənbə:** Azərbaycanın milli hesabları, statistik məcmuə, ARDSK, Bakı, 2019 Bakı, 2019 (https://www.stat.gov.az/) milli hesablar sistemi və tədiyyə balansı (https://www.stat.gov.az/source/system_nat_accounts/)

**Əlavə 2.**

**Cədvəl 5:2014-2018-ci illərdə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafını xarakterizə edən əsas makroiqtisadi göstəricilər**

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| **Ümumi daxili məhsul, milyon manat** | **59014** | **54380** | **60425** | **70337** | **79797** |
| Əhalinin gəlirləri, mlyn manat | 39472 | 41744 | 45395 | 49187 | 53688 |
| Orta aylıq nominal əmək haqqı, manat | 444 | 466 | 499 | 528 | 544 |
| Dövlət büdcəsinin gəlirləri: | | | | | |
| mlyn. Manat | 18400 | 17498 | 17505 | 16516 | 22508 |
| ümumi daxili məhsulda, faizlə | 31,2 | 32,2 | 29,0 | 23,5 | 28,2 |
| Dövlət büdcəsinin xərcləri: | | | | | |
| mlyn. Manat | 18709 | 17784 | 17751 | 17594 | 22731 |
| ümumi daxili məhsulda, faizlə | 31,7 | 32,7 | 29,4 | 25,0 | 28,5 |
| Dövlət büdcəsinin kəsiri (-), profisiti:: | | | | | |
| mlyn. Manat | -308,4 | -286,5 | -245,6 | -1077 | -222,7 |
| ümumi daxili məhsulda, faizlə | 0,5 | 0,5 | 0,4 | 1,5 | 0,3 |
| Əhalinin banklardakı əmanətləri (ilin sonuna) mlyn. Manat | 7188 | 9473 | 7448 | 7561 | 8375 |
| Əhalinin sayı (ilin sonuna), mlyn. nəfər | 9593 | 9705 | 9810 | 9898 | 9981 |
| Əsas fondlar (ilin sonuna), mlyn. manat | 110677 | 124008 | 169120 | 182788 | 193491 |
| Kredit qoyuluşları (ilin sonuna), mlyn. manat | 18542 | 21730 | 16444 | 11757 | 13020 |
| İqtisadiyyata yönəldilən investisiyalar, mlyn. Manat | 21890 | 20057 | 22706 | 24462 | 25877 |
| Cari hesab balansı, mlyn. ABŞ dollar | 10430 | -222,5 | -1363 | 1684 | 6051 |

**Mənbə:** Azərbaycan rəqəmlərdə, statistik məcmuə, ARDSK, Bakı ,2019. (https://www.stat.gov.az/)

**Əlavə 3.**

**Cədvəl 7:İstehsal hesabı və gəlirlərin yaranması, cari qiymətlərlə, milyon manatla**

| **İFNT üzrə seksiyanın hərf işarəsi və adı** | | **2018*** | | |
|---|---|---|---|---|
| | | **Ümumi buraxılış** | **Aralıq istehlak** | **Əlavə dəyər** |
| | | **P.1** | **P.2** | **B.1g** |
| A | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 7 693,4 | 3 518,6 | 4 174,8 |
| B | Mədənçıxarma sənayesi | 34 935,0 | 3 893,6 | 31 041,4 |
| C | Emal sənayesi | 10 485,4 | 6 785,3 | 3 700,1 |
| D | Elektrik enerjisi, qaz və buxar istehsalı, | 1 994,1 | 1 216,2 | 777,9 |
| E | Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 326,3 | 180,6 | 145,7 |
| F | Tikinti | 13 773,0 | 7 589,6 | 6 183,4 |
| G | Ticarət; nəqliyyat vasitələrinin təmiri | 11 875,0 | 4 207,9 | 7 667,1 |
| H | Nəqliyyat və anbar təsərrüfatı | 7 587,1 | 2 659,2 | 4 927,9 |
| I | Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 2 828,6 | 994,4 | 1 834,2 |
| J | İnformasiya və rabitə | 1 896,9 | 641,6 | 1 255,3 |
| K | Maliyyə və sığorta fəaliyyəti | 1 926,8 | 541,5 | 1 385,3 |
| L | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 2 766,9 | 595,8 | 2 171,1 |
| M | Peşə, elmi və texniki fəaliyyət | 2 193,1 | 1 045,0 | 1 148,1 |
| N | İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 710,0 | 273,0 | 437,0 |
| O | Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 4 175,5 | 1 976,2 | 2 199,3 |
| P | Təhsil | 2 788,8 | 581,7 | 2 207,1 |
| Q | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 1 915,8 | 646,6 | 1 269,2 |
| R | İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 845,2 | 296,4 | 548,8 |
| S | Digər sahələrdə xidmətlərin göstərilməsi | 1 229,2 | 409,2 | 820,0 |
| **C** | **Fəaliyyət növləri üzrə cəmi** | **111 946,2** | **38 052,5** | **73 893,7** |

**Mənbə:** Azərbaycanın milli hesabları, statistik məcmuə, ARDSK, Bakı, 2019 (https://www.stat.gov.az/) milli hesablar sistemi və tədiyyə balansı (https://www.stat.gov.az/source/system_nat_accounts/)

**Əlavə 4.**

**Cədvəl 8: 2013-2017-ci illərdə Azərbaycan Respublikasında Ümumi Milli Gəlirin tərkibi, mln. manat**

| **Əməliyyatlar və balanslaşdırıcı maddələrin adı** | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|---|
| İşçilərin əmək haqqı | 10 077,0 | 10 560,5 | 10 965,0 | 11 740,6 | 12 685,9 |
| İstehsala və idxala vergilər | 4 415,7 | 4 851,7 | 5 424,2 | 5 662,8 | 5 539,9 |
| Subsidiyalar | | | | | |
| məhsullara və idxala | -158,8 | -188,8 | -177,9 | -188,4 | -179,9 |
| Idxala | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| digər | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| Ümumi mənfəət (qarışıq gəlirlər) | 43 848,1 | 43 790,7 | 38 168,7 | 43 210,2 | 52 291,9 |
| **Bazar qiymətlərində ümumi daxili məhsul** | **58182,0** | **59 014,1** | **54 380,0** | **60 425,2** | **70 337,8** |
| Qalan dünyadan alınmış əmək haqqı | 431,1 | 440,5 | 431,7 | 440,0 | 563,9 |
| Qalan dünyaya verilmiş əmək haqqı | -174,9 | -224,7 | -359,4 | -399,9 | -448,2 |
| Mülkiyyətdən alınmış gəlirlər | 715,4 | 1 205,8 | 1 201,3 | 1 343,7 | 2 016,9 |
| Mülkiyyətdən verilmiş gəlirlər | 3 865,S2 | -3 113,3 | -3 012,4 | -5 015,0 | -4 791,8 |
| İlkin gəlirlərin ümumi qalığı | 55 288,4 | 57 322,4 | 52 641,2 | 56 794,0 | 67 678,6 |
| Alınmış cari transferlər | 1 695,4 | 1 819,1 | 1 657,1 | 1 563,6 | 2 601,1 |
| Verilmiş cari transferlər | -1 287,4 | -1 275,1 | -1 031,5 | -899,6 | -695,9 |
| Sərəncamda qalan ümumi gəlir | 55 696,4 | 57 866,4 | 53 266,8 | 57 457,9 | 69 583,8 |
| Əsas fondların istehlakı | 2 617,8 | 3 466,3 | 3 643,3 | 3 997,5 | 4 400,4 |
| **Sərəncamda qalan xalis gəlir** | **53 078,6** | **54 400,1** | **49 623,5** | **53 460,4** | **65 183,4** |

**Mənbə:** Azərbaycanın milli hesabları, statistik məcmuə, ARDSK, Bakı, 2019 (https://www.stat.gov.az/) milli hesablar sistemi və tədiyyə balansı (https://www.stat.gov.az/source/system_nat_accounts/)

**Əlavə 5.**

**Cədvəl 11: İqtisadiyyatin sektorları üzrə yaradılmış ümumi əlavə dəyər ,milyon manatla**

| | | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| **B.1g** | **Ümumi əlavə dəyər** | **39 588,5** | **49 521,0** | **55 503,7** | **65 333,4** |
| S.11 | qeyri-maliyyə müəssisələri | 27 685,8 | 27 203,6 | 30 692,2 | 37 679,5 |
| S.12 | maliyyə təşkilatları | 477,6 | 1 580,7 | 1 549,1 | 1 561,7 |
| S.13 | dövlət idarəetməsi | 2 506,6 | 3 509,7 | 3 860,0 | 4 297,1 |
| S.14 | ev təsərrüfatları | 8 773,5 | 17 069,4 | 19 245,6 | 21 620,1 |
| S.15 | ev təsərrüfatlarına xidmət edən q/kommersiya təşkilatları | 145,0 | 157,6 | 156,8 | 175,0 |

**Mənbə:** Azərbaycanın milli hesabları, statistik məcmuə, ARDSK, Bakı, 2019 (https://www.stat.gov.az/) milli hesablar sistemi və tədiyyə balansı (https://www.stat.gov.az/source/system_nat_accounts/)

**Əlavə 6.**

**Cədvəl 12: Qalan dünya ilə iqtisadi əməliyyatlar hesabı, cari qiymətlərlə, milyon manatla**

| Əməliyyatlar və balanslaşdırıcı maddələrin kodu və adı | | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| | **Mal və xidmətlərin xarici ticarət hesabı** | | | | |
| P.6 | Mal və xidmətlərin ixracı | 23 060,5 | 20 552,8 | 28 054,0 | 34 147,5 |
| P.7 | Mal və xidmətlərin idxalı | 8 782,3 | 18 927,9 | 26 375,4 | 29 439,5 |
| B.11 | Xarici ticarət balansı | -14 278,2 | -1 624,9 | -1 678,6 | -4 708,0 |
| | **Xaricdən alınmış ilkin gəlirlər və cari transferlər hesabı** | | | | |
| B.11 | Xarici ticarət balansı | -14 278,2 | -1 624,9 | -1 678,6 | -4 708,0 |
| D.1 | Qalan dünyaya verilmiş əmək haqqı | 91,1 | 359,4 | 399,9 | 448,2 |
| D.4 | Mülkiyyətdən verilmiş gəlirlər | 3 233,7 | 3 012,4 | 5 015,0 | 4 791,8 |
| D.7 | Verilmiş cari transferlər | 731,4 | 1 031,5 | 899,6 | 695,9 |
| D.1 | Qalan dünyadan alınmış əmək haqqı | -298,0 | -431,7 | -440,0 | -563,9 |
| D.4 | Mülkiyyətdən alınmış gəlirlər | -484,0 | -1 201,3 | -1 343,7 | -2 016,9 |
| D.7 | Alınmış cari transferlər (-) | 1 620,3 | 1 657,1 | 1 563,6 | -2 601,1 |
| B.12 | Cari xarici balans | -12 624,3 | -511,7 | -1 288,6 | -3 954,0 |
| | **Capitalla xarici əməliyyatlar hesabı** | | | | |
| B.12 | Cari xarici balans | -12 624,3 | -511,7 | -1 288,6 | -3 954,0 |
| D.9 | Alınmış əsaslı transferlər | -17,7 | 41,0 | 64,0 | -174,1 |
| D.9 | Verilmiş əsaslı transferlər | 6,3 | 0,0 | 0,0 | 1,3 |
| K.2 | Qeyri-maddi aktivlərin və torpaqların xalis alqısı | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| | Statistik fərq | -818,3 | 0,0 | 0,0 | 0,0 |
| **B.9** | **Kapital hesabından xalis kredit (+) və ya xalis borc (-)** | **11 817,4** | **470,7** | **-1 352,7** | **-4 126,8** |

**Mənbə:** Azərbaycanın milli hesabları, statistik məcmuə, ARDSK, Bakı, 2019 (https://www.stat.gov.az/) milli hesablar sistemi və tədiyyə balansı (https://www.stat.gov.az/source/system_nat_accounts/)

**Əlavə 7.**

**Qrafik 2: Ümumi Əlavə Dəyərin dinamikası**




**Mənbə:** Azərbaycanın milli hesabları, statistik məcmuə, ARDSK, Bakı, 2019 əsasında müəllif tərəfindən hazırlanmışdır.

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** MHS-nin makroiqtisadi göstəriciləri.........................................................................12

**Cədvəl 2:** 2017- 2019-cu illərdə əmtəə vahidinin satış qiymətləri və onların buraxılışının həcmi.........................................................................................................................39

**Cədvəl 3:** Azərbaycan Respublikasının ümumi daxili məhsulu və onun əhalinin hər nəfərinə düşən məbləği......................................................................................................49

**Cədvəl 6:** ÜDM-un həcminin ümumi inkişaf meyli......................................................................54

**Cədvəl 9:**Gəlirlərin ilkin bölüşdürülməsi hesabı (milyonmanatla)...............................................59

**Cədvəl 10:** Gəlirlərin yaranması hesabı (milyon manatla)..........................................................60

**Cədvəl 13:** İqtisadiyyata yönəldilən investisiyalar.......................................................................65

**Cədvəl 4:** Ümumi daxili məhsul - manat, dollar və avro ilə.........................................................73

**Cədvəl 5:** 2014-2018-ci illərdə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafını xarakterizə edən əsas makroiqtisadi göstəricilər.........................................................................................74

**Cədvəl 7:**İstehsal hesabı və gəlirlərin yaranması, cari qiymətlərlə, milyon manatla........................................................................................................................................75

**Cədvəl 8:** 2013-2017-ci illərdə Azərbaycan Respublikasında Ümumi Milli Gəlirin tərkibi ,mln.manat.......................................................................................................................................76

**Cədvəl 11:** İqtisadiyyatin sektorları üzrə yaradılmış ümumi əlavə dəyər. milyon manatla........................................................................................................................................77

**Cədvəl 12:** Qalan dünya ilə iqtisadi əməliyyatlar hesabı, cari qiymətlərləmilyon manatla........................................................................................................................................78

## Qrafiklərin siyahısı

**Qrafik 1:** ÜDM və adam başına düşən ÜDM-nin faizlə dnamikası ............................................50

**Qrafik 2:** Ümumi Əlavə Dəyərin Dinamikası.........................................................................79